QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 165 (5396) 14 **sentyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Ölkə başçısının səfərlərindən yaranan inkişaf mərhələləri

*İlham Əliyev: "Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlətin verdiyi dəstək heç bir başqa ölkədə yoxdur"*



Səh 4

**Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında səmərəli əməkdaşlıq mövcuddur**



2

**Amerikalı sahibkar "ADA" Universitetinin tələbələrinə biznesdə uğur qazanmağa dair tövsiyələr verib**



3

**Aleksandr Lapşin: Öz əməlimdən səmimi peşmançılıq hissi keçirirəm**



5

Erməni hərbi ekspert: Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələrindən çəkinir



5

**Erkan Özoral: Aprel döyüşləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi**



8

**Müdafiə naziri İsrail Silahlı Qüvvələrinin Komanda və İdarəetmə Mərkəzində olub**



9

11

**Ermənistanda ictimai-siyasi vəziyyət daha gərgin hal almağa başlayıb**



12

**Maliyyə möhtəkiri, yoxsa buqələmun**



16

**"Qarabağ" komandası UEFA Çempionlar Liqasında ilk oyununu keçirib**



# Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında səmərəli əməkdaşlıq mövcuddur

*Prezident İlham Əliyev Beynəlxalq Valyuta Fondunun Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Beynəlxalq Valyuta Fondunun (BVF) Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azurun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Beynəlxalq Valyuta Fondunun Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azur Azərbaycana səfəri çərçivəsində İçərişəhərdə olduqlarını, bu tarixi irsin yüksək səviyyədə qorunub saxlanılmasının və İçərişəhərin gözəlliyinin onlarda dərin təəssürat yaratdığını dedi.***

İçərişəhərin UNESCO-nun ümumdünya irs siyahısına daxil edildiyini deyən Prezident İlham Əliyev bu irsin qorunmasına dövlətin xüsusi diqqət göstərdiyini vurğuladı.

Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uzun illər davam edən əməkdaşlığı yüksək qiymətləndirən dövlətimizin başçısı ölkəmizin bu əməkdaşlığın davam etdirilməsində maraqlı olduğunu dedi. Azərbaycanda dövlət idarəçiliyi sistemində həyata keçirilən islahatların önəmindən danışan Prezident İlham Əliyev biznes mühitinin və sərmayə qoyuluşunun asanlaşdırılması və daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda təhsil sisteminin modernləşdirilməsi, savadlı və bacarıqlı kadr potensialının artırılması istiqamətində görülən işlərdən və ölkənin bank sektorunda aparılan islahatlardan danışdı. 2017-ci ili maliyyə sabitliyi ili kimi qiymətləndirən Prezident İlham Əliyev qarşıdakı 2018-ci ildə iqtisadi artımın təmin edilməsi ilə bağlı təsirli tədbirlərin görüldüyünü diqqətə çatdırdı.

BVF-nin Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azur Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatların Beynəlxalq Valyuta Fondu tərəfindən yüksək qiymətləndirildiyini dedi. O, neftin qiymətinin kəskin aşağı düşməsi ilə bağlı dünya iqtisadiyyatında yaranan fəsadların Azərbaycan iqtisadiyyatına təsirinin aradan qaldırılması, makroiqtisadi vəziyyətin sabitləşdirilməsi istiqamətində hökumətin atdığı addımların əhəmiyyətini xüsusi vurğuladı. Manatın möhkəmləndirilməsi və büdcənin yığcamlaşdırılması prosesinin davam etdirilməsi və ölkə iqtisadiyyatında struktur islahatlarının həyata keçirilməsi istiqamətində görülən işlərin önəmini qeyd edən Cihad Azur iqtisadiyyatın şaxələndirilməsinin, qeyri-neft sektorunun daha da inkişaf etdirilməsinin və ölkə iqtisadiyyatının postneft dövrünə hazırlanmasının vacibliyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# AŞPA-nın vitse-prezidenti: Beynəlxalq birlik Dağlıq Qarabağ probleminin həllində fəallıq nümayiş etdirməlidir

Bu gün dünyada baş verən ağır iqtisadi, siyasi proseslər fonunda bir sıra problemlərin həlli açarı Azərbaycandadır. Bu fikri AZƏRTAC-a açıqlamasında Ukrayna Ali Radasının deputatı, AŞPA-nın vitse-prezidenti Georgi Loqvinski deyib. O bildirib ki, Azərbaycan region və dünya dövlətləri üçün çox uğurlu iqtisadi, mədəni layihələr həyata keçirir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq birliyin



ədalətli mövqe nümayiş etdirməməsinə dair sualı cavablandıran AŞPA-nın vitse-prezidenti vurğulayıb ki, beynəlxalq təşkilatlar hansı tərəfin işğalçı və hansı tərəfin işğala məruz qalmasını konkret göstərməlidirlər.

"Ümumiyyətlə, "dondurulmuş münaqişə" terminindən xoşum gəlmir. Hesab edirəm ki, beynəlxalq birlik Dağlıq Qarabağ probleminin həllində fəallıq nümayiş etdirməlidir", - deyə Loqvinski qeyd edib.

## Rəsmi xronika

Prezident İlham Əliyev 2017/2018-ci tədris ilində Azərbaycanın ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev İlhan Aküzümün "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi tədbirləri haqqında Sərəncam imzalayıb.

* * *

Yaponiyanın Baş naziri Şinzo Abe Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Məktubda deyilir:

"Zati-aliləri

Yaponiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında çox sıx əlaqələr qurulmuşdur. Müstəqillik illərində diqqətəlayiq iqtisadi uğurlar qazanan Azərbaycan Cənubi Qafqaz regionunda sabit inkişaf edən ölkə və Yaponiyanın vacib tərəfdaşıdır.

Ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan münasibətlər 1998-ci ildə Prezident Heydər Əliyevin və 2006-cı ildə isə Zati-alinizin Yaponiyaya səfərləri nəticəsində daha sürətlə inkişaf etmişdir. Son illər hökumətlərarası dialoqun, yüksək səviyyəli rəsmilərin səfərlərinin intensivləşməsi, parlamentlər, yerli özünüidarəetmə orqanları arasında və digər genişmiqyaslı mübadilələrin fəallaşması məni çox sevindirir.

Həmçinin ölkələrimiz arasında təkcə energetika sahəsində deyil, iqtisadiyyatın digər sahələrində də yapon şirkətlərinin fəal iştirakı ilə əməkdaşlığımız davamlı olaraq inkişaf edir. Bu ilin fevralında Bakıda Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin 9-cu birgə iclası keçirilmiş və bildiyimə görə, Azərbaycanın önəm verdiyi iqtisadiyyatın şaxələndirilməsi məqsədilə qeyri-neft sektorunda əməkdaşlığın davam etdirilməsi barədə danışıqlar aparılmışdır. Bundan başqa, cari ilin iyununda ölkələrimiz arasında investisiya razılaşmasının ilkin müzakirələrinin başlanması, iqtisadi sahədəki əməkdaşlıq Zati-alinizin Yaponiyaya səfəri zamanı elan olunmuş Birgə Bəyanata əsaslanaraq davamlı şəkildə inkişaf etməkdədir. Əminəm ki, əməkdaşlığımız bundan sonra da bir çox sahədə inkişaf edəcək böyük potensiala malikdir.

Diplomatik münasibətlərimizin qurulmasının 25-ci ildönümü münasibətilə yaranmış fürsətdən istifadə edərək, Azərbaycan-Yaponiya əlaqələrinin bundan sonra da müxtəlif istiqamətlərdə daha da dərinləşib inkişaf edəcəyinə əmin olduğumu bildirirəm. Zati-aliləri, Sizə möhkəm cansağlığı və işlərinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına isə firavanlıq arzu edirəm".

# Amerikalı sahibkar "ADA" Universitetinin tələbələrinə biznesdə uğur qazanmağa dair tövsiyələr verib







Tanınmış amerikalı iş adamı Şervin Pişəvar "ADA" Universitetində "Müasir texnologiyaların qlobal biznes mühitinə təsiri" mövzusunda mühazirə oxuyub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Bu gün "Uber", "Airbnb" kimi nəhəng qlobal şirkətlərə çevrilən "startup" təşəbbüslərə əvvəldən inanıb sərmayə qoyan sahibkar Şervin Pişəvar "ADA" Universitetinin tələbə və müəllim heyəti qarşısında çıxış edərək uğurlu biznes ideyalarının tapılmasında tövsiyələri ilə bölüşüb. Onun sözlərinə görə, başlanğıc mərhələsində olan müxtəlif layihələrə sərmayə qoyarkən bu layihələrin 99 faizinin pul itirəcəyinə hazır olmaq lazımdır. Lakin yerdə qalan 1 faiz ümidləri doğruldaraq inkişaf edir və bütün yatırımları artıqlaması ilə qaytarır. "Uğursuzluğa uğrayanlar məni çəkindirmir, çünki ideyalarını davamlı şəkildə tətbiq etməsi, çalışqanlıqları, əslində, ondan xəbər verir ki, onlar əvvəl-axır uğur qazanacaqlar", - deyə amerikalı iş adamı bildirib.

Şervin Pişəvar tələbələrə gələcəkdə "startup" biznesləri yaradarkən iki amili - özlərinə inamı heç zaman itirməməyi və başladıqları biznesin elmi tərəfini mükəmməl öyrənməyi nəzərə almağı tövsiyə edib. O deyib: "Əgər ideyanız insanların həyat tərzi və davranışını dəyişmək potensialına malikdirsə, bilin ki, o gəlir gətirəcək".

Şervin Pişəvar həmtəsisçisi olduğu Hyperloop One şirkətinin fəaliyyətini misal çəkərək deyib: "Nəqliyyat və daşınma sahəsində inqilaba səbəb olacaq bu layihə uzun məsafələri ultra sürətlə qət edən yerüstü nəqliyyat vasitəsi təklif edəcək. Saatlarla məsafəni bir neçə dəqiqəyə qət edəcək bu texnologiya insanların həyat tərzini və hətta bütün sənayeləri dəyişdirə bilər. Bu kimi layihələrin uğur qazanması şübhəsizdir".

Məşhur iş adamı gənc azərbaycanlı alimləri sırf gəlir gətirə biləcək ideyalar deyil, insanların həyatını asanlaşdıracaq, bəşəriyyətin qarşılaşdığı çətinliklərə həll yolları tapacaq layihələr üzərində işləməyə çağırıb. Mühazirənin sonunda amerikalı sahibkar "ADA" Universiteti tələbələrinin suallarını cavablandırıb.



səs

www.sesqazeti.az

facebook

Ses Media Holding

14 sentyabr 2017-ci il

# Ölkə başçısının səfərlərindən yaranan inkişaf mərhələləri

## *İlham Əliyev: "Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlətin verdiyi dəstək heç bir başqa ölkədə yoxdur"*

***Son illər Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub desək, yanılmarıq. Qeyri-neft sektorunda mühüm istiqamətlərdən olan kənd təsərrüfatının inkişafının prioritet hesab edildiyi respublikada, ötən müddət ərzində, görülən işlər, həyata keçirilən islahatlar öz məntiqi nəticəsini verməkdədir. Bunu isə şərtləndirən əsas amillərdən biri hər region üzrə spesifik olan sahələrin müəyyənləşdirilməsi və həmin sahələrin inkişafına diqqətin artırılmasıdır. Ölkə Prezidenti İlham Əliyev cənub zonasına səfəri zamanı deyib ki, bu sahədə qəbul edilən dövlət proqramları kənd təsərrüfatı sahəsinin şaxələndirilməsinə geniş imkanlar açacaq: "Ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağıl ölkədə mühüm işlər görülür. Hazırda əsas ərzaq məhsullarına olan tələb ödənilir".***



### İnkişaf etmiş kənd təsərrüfatı iqtisadi sabitliyin başlıca şərtidir

Etibarlı ərzaq təminatı hər bir



ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, Azərbaycan dövləti əhalinin ərzaqla etibarlı təminatına dair tədbirlər həyata keçirməkdə davam edir. Ölkədə ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları həyata keçirilməkdədir. Onu da vurğulamaq lazımdır ki, dövlət başçısı kənd təsərrüfatına yalnız ölkənin ərzaq təhlükəsizliyini təmin edən əsas sahə kimi baxmır, həm də qeyri-neft bölməsinin aparıcı sektoru kimi yanaşır. Əgər bu gün Azərbaycan fermeri, kənd təsərrüfatı məhsulları istehsalçısı bütün vergilərdən azaddırsa, onlara əkib-becərmək üçün maddi yardım olunursa, motor yağı, yanacaq güzəştli qiymətlərlə satılırsa, aşağı faizlərlə kreditlər verilirsə, toxum, gübrə problemlərinin həllini dövlət öz üzərinə götürürsə və daha neçə-neçə əlverişli şərait, işgüzar mühit yaradırsa, stimullaşdırıcı tədbirlər görürsə, bu, ilk növbədə, Prezident İlham Əliyevdən gələn təşəbbüslərdir.

Elə bu günlərdə Prezident İlham Əliyevin Sədrliyi ilə Lənkəranda keçirilən çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində də azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstəkdən danışıb: "Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstək heç bir başqa ölkədə yoxdur. İlk növbədə, əgər biz vergi siyasətinə nəzər salsaq, görərik ki, ölkəmizdə fermerlər bütün vergilərdən azad olunublar, təkcə torpaq vergisindən başqa".

Ölkə Prezidenti, həmçinin, fermerlərə göstərilən dövlət dəstəyindən danışaraq, bildirib ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir: "Əlbəttə ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir. Dövlət xətti ilə ən müasir texnika alınır. Dünən təsərrüfatlarla tanış olarkən, mən yeni texnikanı da gördüm. Bu texnikasız kənd təsərrüfatını inkişaf etdirmək, ümumiyyətlə, mümkün deyil. Bu il Azərbaycana 10 min ən müasir texnika gətirilib. Fermerlərə subsidiyalar verilir. Qeyd etdiyim kimi, güzəştli şərtlərlə kreditlər verilir. Yanacağın, gübrənin böyük hissəsi dövlət tərəfindən təmin edilir, metodik tövsiyələr verilir. Dövlət tərəfindən verilən tövsiyələr əsasında 40-a yaxın müasir aqropark yaradılır. Yeni sahibkarlara, fermerlərə dövlət tərəfindən bu qədər dəstək verilir və biz bunun nəticəsini də görürük. Sahibkarlar da, fermerlər də bu işlərə məsuliyyətlə yanaşırlar, götürülmüş kreditlər vaxtında qaytarılır. Növbəti illərdə bütün sahələr üzrə konkret işlər görüləcək".

### "Bu ilin 7 ayında valyuta ehtiyatları 3 milyard 600 milyon dollar artıb"

Dövlət başçısı sözügedən müşavirədə onu da vurğulayıb ki, bu sahədə qəbul edilən dövlət proqramları kənd təsərrüfatı sahəsinin şaxələndirilməsinə geniş imkanlar açacaq: "Ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı ölkədə mühüm işlər görülür. Hazırda əsas ərzaq məhsullarına olan tələb ödənilir".

Prezident İlham Əliyev çıxışında regionların inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarının əhəmiyyətindən danışıb: "Bu proqramlar bölgələrin inkişafına güclü təsir edib. Təsadüfi deyil ki, son illər 20-dən çox elektrik stansiyası tikilib, ölkə üzrə qazlaşma 93 faizə çatıb, 11 min kilometrdən çox yol salınıb, sosial infrastruktur məsələlərinə böyük diqqət göstərilib. 3 mindən çox məktəb, 600-dən çox tibb mərkəzi inşa olunub. Ölkədə işsizlik kəskin surətdə azalaraq 5 faiz həcminə düşüb, 1 milyon 600 min yeni iş yeri yaradılıb. Son illər sahibkarlara 2 milyard manatdan çox güzəştli kreditlər verilib. Bu ilin 7 ayında valyuta ehtiyatları 3 milyard 600 milyon dollar artıb".

Beləliklə, göstərilən faktlar, onu bir daha sübut edir ki, Azərbaycan iqtisadiyyatı inkişaf edir və kənd təsərrüfatının bütü sahələrinin inkişafı isə Azərbaycanın ixrac potensialını artıracaq ki, bu da həm ölkəyə valyuta axınını artıracaq, həm də Azərbaycan məhsullarının dünya bazarlarına çıxışını sürətləndirəcək. Ən əsası isə ərzaq təhlükəsizliyinin təmin olunmasına yol açacaq. Təsadüfi deyil ki, elə Prezident İlham Əliyev də Lənkəranda keçirilən müşavirədə bu məsələyə xüsusi diqqət çəkərək bildirib ki, ərzaq təhlükəsizliyi, əlbəttə ki, bizim üçün əsas məsələlərdən biridir: "Son illər ərzində bu istiqamətdə çox önəmli addımlar atılıb. Bizim üçün ənənəvi olmayan sahələri inkişaf etdirmişik".

Dövlət başçısı bildirib ki, bizim üçün ənənəvi olan sahələr də bu gün uğurla inkişaf etdirilir: "Pambıqçılıq. Biz pambıqçılığın şöhrətini bərpa etdik. İki il ərzində çox böyük işlər görüldü. Pambıq sahələri 17 min hektardan 136 min hektara çatdırıldı. İki müşavirə keçirildi - Sabirabadda və Saatlıda. Tütünçülük, fındıqçılıq, baramaçılıq sürətlə inkişaf edir. Qax rayonunda müşavirə keçirildi və tütün sahələri 3200 hektara çatdı. Fındıq bağlarının sahəsi 55 min hektara çatdı, 80 min hektara çatacaq. Barama istehsalı isə indi ölkəmizin bütün bölgələrində geniş vüsət alıb. Dünən Lənkəranda tut tinglləri sahəsinə də baxış keçirdim. Gördüm ki, Lənkəranda da bu sahəyə böyük maraq var. Baxmayaraq ki, sovet vaxtında baramaçılıq Lənkəranda və bu zonada inkişaf etdirilmirdi. Bu sahələrin inkişafı məşğulluğu artırır, idxaldan asılılığı azaldır, ixrac potensialımızı gücləndirir. Bizim məqsədimiz bundan ibarətdir".

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Kənd təsərrüfatı xərclərinin dövlət büdcəsindəki xüsusi çəkisinin ilbeil artırılması isə, onu deməyə əsas verir ki, Azərbaycan yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevriləcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

# Aleksandr Lapşin: Öz əməlimdən səmimi peşmançılıq hissi keçirirəm

## *Azərbaycan Prezidenti tərəfindən əfv olunmuş İsrail vətəndaşı dövlətimizin başçısına minnətdarlıq edir*

***Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci il 11 sentyabr tarixli Sərəncamı ilə əfv edilmiş İsrail vətəndaşı Aleksandr Lapşin dövlətimizin başçısına minnətdarlıq məktubu göndərib.***



AZƏRTAC Azərbaycan Prezidentinin saytına istinadla xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 20 iyul tarixli hökmü ilə üç il azadlıqdan məhrum edildiyini xatırladan Aleksandr Lapşin məktubunda yazır: "Bu gün xəbər tutdum ki, Siz mənim əfv edilməyim barədə Sərəncam imzalamısınız. Buna görə Sizə hədsiz minnətdaram. Yəqin ki, ömrümdə heç bir hadisəni bu dərəcədə səbirsizliklə gözləməmişdim".

Öz əməlindən səmimi peşmançılıq hissi keçirdiyini bildirən Aleksandr Lapşin qeyd edir ki, Dağlıq Qarabağa gedərkən onda həmin regionda və onun ətrafında baş verən hadisələr barədə mötəbər məlumat olmayıb. İndi isə Qarabağın əzəli Azərbaycan torpağı olduğuna və olacağına dair təkzibedilməz faktlara malikdir. O, ümid etdiyini bildirir ki, Qarabağ məsələsi Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla tənzimlənəcək. Məsuliyyətsiz hərəkətlərinə görə bir daha peşmançılıq hiss keçirdiyini vurğulayan və göstərilən humanistliyə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirən Aleksandr Lapşin məktubunu bu sözlərlə tamamlayır: "İcazə verin, Sizə, Sizin ailənizə, bütün Azərbaycan xalqına uzun ömür, cansağlığı, daha artıq firavanlıq və işğal edilmiş ərazilərinizin tezliklə azad olunması arzularımı bildirim".

# Erməni hərbi ekspert: Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələrindən çəkinir



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğı nəticəsində Silahlı Qüvvələrimiz sürətlə inkişaf edir. Bu gün ordu quruculuğu dövlətimizin başçısının diqqət mərkəzindədir. Ordunun döyüş hazırlığı səviyyəsinin artırılması, onun müasir hərbi texnika və vasitələrlə gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu gün Azərbaycanın güclü və sarsılmaz ordusu var. Ötən ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun təxribatının qarşısını alarkən düşmənə sarsıdıcı zərbələr endirdi. Bu, ordumuzun gücünü bir daha nümayiş etdirdi. Azərbaycan Silahlı Qüvvələrinin vurduğu sarsıdıcı zərbədən düşmən hələ də özünə gəlməyib.



Azərbaycan Ordusunun gücünü bilən işğalçı Ermənistan ordusu daim qorxu içindədir. Bunu düşmən ölkənin hərbiçiləri, hərbi ekspertləri də çıxışlarında dəfələrlə etiraf ediblər. Onlar bildiriblər ki, Azərbaycan Silahlı Qüvvələri hərbi potensialına görə Ermənistan ordusundan qat-qat güclüdür. Buna misal olaraq, Ermənistanın xəbər saytlarında dərc edilən Artyom Balasanov tərəfindən yazılmış "Azərbaycan növbəti müharibədə "üç cəbhə" strategiyasından istifadə edəcək" adlı məqaləni göstərmək olar.

Məqalədə Azərbaycanın gözlənilən hücum istiqamətlərindən bəhs edilir. Yazıda göstərilmiş məqamlar onu sübut edir ki, Ermənistan tərəfi Azərbaycanın təsir vasitələrindən, hərbi potensialından, Ordusunun döyüş imkanlarından qorxur və ehtiyatlanır. Bu amil də düşmən tərəfdə vahimə və xof yaradır. Bununla da onlar Azərbaycan Silahlı Qüvvələrindən çəkindiklərini, qorxduqlarını boyunlarına alır, beləliklə də erməni əhalisini psixoloji cəhətdən məğlubiyyətə hazırlayırlar. Yəni, mövcud kriminal rejim gələcəkdə Ermənistanın təxribatı nəticəsində hərbi əməliyyatlar təkrar olunarsa, çoxlu itki verəcəklərinə və ərazi itirəcəklərinə dair əhalidə fikir formalaşdırmaqla məsələyə loyal yanaşılmasına, bunun normal hal kimi qəbul edilməsinə nail olmaq istəyir. Bununla onlar "Baxın, biz demişdik, Azərbaycanın gücü, hərbi texnikası, silah-sursatı, canlı qüvvəsi bizdən qat-qat artıqdır. Erməni xalqı bu məğlubiyyəti normal qarşılamalı və daha sıx birləşməlidir" deməklə ictimaiyyəti indidən gözlənilən ssenariyə qarşı hazırlamağa, özlərini haqlı çıxarmağa çalışırlar. Bu istiqamətdə təbliğat aparmaqla, Azərbaycanın münaqişənin həlli istiqamətində atacağı addımlarla bağlı ekspert açıqlamaları tirajlamaqla, kriminal-hərbi siyasi rejim gələcək məğlubiyyətlərinə və uğursuzluqlarına haqq qazandırmağa can atır.



# Siyavuş Novruzov Çin Xalq Respublikasının Azərbaycandakı səfiri ilə görüşüb

***Sentyabrın 13-də Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua ilə partiyanın mənzil qərargahında görüşüb.***

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. YAP İcra katibinin müavini Siyavuş Novruzov Azərbaycan ilə Çin Xalq Respublikası arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib.

Qeyd olunub ki, üst-üstə düşən maraqlar ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

# Millət vəkili: "Azərbaycanla İsrail arasında tarixi əlaqələr var"



***Azərbaycanın müdafiə nazirinin İsrailə səfəri iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsi, yeni silahların alınması, eyni zamanda ordu quruculuğu məsələsində hər iki ölkənin əldə etdiyi təcrübənin bölüşdürülməsi məqsədi daşıyır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə deyib.***

Azərbaycan bir çox ölkələr o cümlədən də İsraillə hərbi sahədə artıq müəyyən tarixə malik olan əməkdaşlığa malik olduğunu deyən deputat söyləyib ki, İsrail bu gün dünyada ən müasir silahlar istehsal edən ölkələrdən biri kimi tanınır: "Azərbaycan İsrail münasibətləri heç bir ölkənin əleyhinə yönəlmir. Azərbaycan Ermənistandan başqa bütün dövlətlərlə sıx əməkdaşlıq edir və bundan sonra da dostluq əlaqələrinin möhkəmləndirmək fikrindədir. Aldığımız silahlar yalnız İşğal altında olan torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin müdafiə qabiliyyətinin yüksəlməsinə yönəlir. Eyni zamanda Ermənistan üçün bir daha aydın olmalıdır ki, Azərbaycan torpaqlarının işğal altında qalmasına heç vaxt razı olmayacaq. Bu baxımdan həm yeni silahların əldə edilməsi, həm də hərbi quruculuq işlərinə böyük diqqət edəcək". A.Mirzəzadə əlavə edib ki, Azərbaycan müharibə vəziyyətində olduğuna görə, onun hərbi gücünün artırılması daim dövlətin diqqət mərkəzindədir: "Azərbaycan ciddi ordu quruculuğu ilə məşğul olur, ən müasir silahlar əldə edir və xarici ölkələrlə hərbi texniki əməkdaşlıq məsələsi daima gündəmdədir".

# "Ümumi təhsildə keyfiyyət ili" elan olunub

## *İlk dərs məşğələsi "Cocuq Mərcanlı-tarixi qayıdışın başlanğıcı" mövzusunda keçiriləcək*

***Artıq ölkəmiz yeni dərs ilinin astanasındadır. Yeni tədris ilində yeni arzular, yeni istəklərlə tədris müəssisələrinə yol açan məktəblilər bu il də dövlət tərəfindən böyük diqqət və qayğı ilə əhatə olunduqlarının şahidinə çevriləcəklər. Artıq bütün təhsil müəssisələri istifadəyə tam hazırdır. Ölkəmizdə bir çox məktəblər təmir və bərpa işlərindən sonra istifadəyə verilib, əlavə korpuslar inşa olunub. Belə ki, növbəti dərs ilinə hazırlıq çərçivəsində paytaxtdakı 20 nömrəli məktəb-lisey üçün yeni bina inşa olunub. Bakıdakı 67, 75, 257 nömrəli tam orta məktəblər üçün yeni korpuslar tikilib, 10, 74, 201, 212 nömrəli tam orta məktəblər, 62 nömrəli məktəb-lisey və 268 nömrəli xüsusi təhsil müəssisəsi və başqaları əsaslı şəkildə təmir edilib. Bütün bunlarla yanaşı, 80-dən artıq məktəbdə cari təmir işləri görülüb. Təhsil müəssisələri dərsliklərlə tam təmin edilib. Çap edilmiş yeni dərslik və müəllimlər üçün metodiki vəsaitlər yerlərə çatdırılıb.***



Təhsil sistemində müasir idarəetmə modelinin tətbiqi, keyfiyyətin yüksəldilməsi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, şəffaflığın təmin edilməsi və digər müvafiq istiqamətlər üzrə həyata keçirilmiş islahat və tədbirlərin nəticəsi olaraq, yola saldığımız ötən tədris ili də uğurlarla yadda qaldı. Artıq ənənə şəklini alan məktəb məzunlarının qızıl və gümüş medalla təltifi bu nailiyyətlər sırasındadır. Onlar ümumi təhsildəki xüsusi nailiyyətləri və 2016-2017-ci dərs ilində keçirilmiş tam orta təhsil səviyyəsi üzrə yekun attestasiyanın nəticələri nəzərə alınaraq, qızıl və gümüş medalla təltif ediliblər. Belə ki, Bakı şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin XI sinif məzunlarından 25-i qızıl, 3-ü gümüş medala layiq görüldü. Ümumilikdə isə, respublika üzrə ümumi təhsil məktəblərinin məzunlarından 154-ü qızıl, 31-i gümüş medala layiq görüldü.

Qeyd edək ki, ötən tədris illəri ilə müqayisədə artım özünün göstərir. Əgər 2010-2011-ci tədris ilində şagirdlərdən 37-si qızıl, 16-sı gümüş medala layiq görülmüşdüsə, müqayisədə fərq açıq-aydın sezilir. Bu il ümumi orta təhsil səviyyəsində (IX sinif) məzunların buraxılış imtahanlarının nəticələri də ötən illə müqayisədə də fərqli görünür və 4,75 faiz artım müşahidə olunub. Bu il Bakı şəhər məktəblərinin məzunları arasında 5 nəfər yüksək nəticə göstərərək, 700 bal toplayıb. 500-600 bal arası nəticə göstərənlərin sayı da kifayət qədərdir.

Ötən tədris ilində respublika üzrə bilik yarışlarında, beynəlxalq olimpiadalarda da uğur qazanan şagirdlərin sayı artıb.

Yetişən nəslin vətənpərvər, geniş dünyagörüşlü, bilikli yetişməsi məqsədi ilə tədbirlər görülür və islahatlar aparılır. Təhsilin keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə bu il "Ümumi təhsildə keyfiyyət ili" elan edilib və bu da növbəti tədris ilinin fəaliyyət baxımından daha zəngin olacağına şübhə doğurmur.

Yeni tədris ilində ümumi təhsil müəssisələrində uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsi məqsədi ilə də mühüm əhəmiyyətli tədbirlər həyata keçirilir. Elə bu il - 2017-2018-ci tədris ilinin ilk dərs məşğələsinin "Cocuq Mərcanlı-tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olunması yetişən nəslin vətənpərvərlik hisslərini möhkəmləndirməsində, vətən sevgisinin daha da yüksəlməsində rolu danılmazdır. Xatırladaq ki, bu il Bakı məktəbləri Təhsil Nazirliyinin "Məktəblinin dostu" layihəsi çərçivəsində Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfər ediblər. Səfər çərçivəsində məktəblilər Cocuq Mərcanlıda həyata keçirilən yenidənqurma və tikinti işləri ilə tanış olublar. Məktəblilər düşmənlə üz-üzə vətənin keşiyində dayanan əsgərlərlə görüşüblər. Bütün bunlar məktəblilərin vətənpərvər yetişməsində əhəmiyyətlidir. İlk dərs günündə də Cocuq Mərcanlı kəndi haqqında məlumat alacaq məktəblilər cəmi bir neçə ay erməni işğalı altında olan və erməni işğalçı qüvvələri tərəfindən tamamilə dağıdılıb, binaları sökülən məkan haqqında geniş məlumat əldə edə biləcəklər. Onu da biləcəklər ki, Azərbaycan Ordusu bu gün güclü bir ordudur və keçən ilin aprelində erməni hərbi təxribatının qarşısını alarkən, Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirib və minlərlə hektar Azərbaycan torpağını işğalçılardan azad edib. Lələtəpə yüksəkliyinin qaytarılması nəticəsində Cocuq Mərcanlıda təhlükəsiz şəraitdə yaşamaq mümkün olub.

Tarix vərəqlənəcək və məktəblilərdə günün mənzərəsi ilə tanışlıq imkanı yaranacaq. Bu ilin yanvar ayında Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamından sonra Cocuq Mərcanlının bərpasına başlanılması və əhalinin öz doğma yurd-yuvasına geri dönməsi onlarda inam, qələbə hissini gücləndirəcək və Tarix Qayıdışdan sonra Azərbaycan torpaqlarında üçrəngli bayrağımızın dalğalanacağı günün uzaqda olmamasına əminlik hissləri artacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Azərbaycan qazını Bolqarıstana çatdıracaq IGB interkonnektoru üzrə ilin sonunda tender proseduruna başlanılacaq



Azərbaycan təbii qazını Bolqarıstana nəql edəcək IGB (Interconnector Greece-Bulgaria) interkonnektoru üzrə mühüm irəliləyişə nail olunub. AZƏRTAC xəbər verir ki, bu barədə ICGB AD şirkəti məlumat yayıb.

Bildirilir ki, IGB boru kəməri ilə Yunanıstandan Bolqarıstana ildə təxminən 3 milyard kubmetr təbii qaz daşınacaq. Bu ilin sonuna qədər boru kəməri üzrə bir neçə tender proseduruna başlanılacaq. Cari ilin birinci yarısında 4-ü Bolqarıstan bazarı üçün yeni olmaqla ümumilikdə 5 şirkət ilə müqavilə imzalanıb.

IGB qaz boru kəmərinin Şimal-Şərqi Yunanıstanın Komotini bölgəsində və Bolqarıstanın cənubundakı Stara Zagora bölgəsində çıxış nöqtəsi olacaq, Yunanıstan və Bolqarıstan milli təbii qaz sistemləri arasında birbaşa əlaqə yaradılacaq. 182 kilometrlik boru kəməri Yunanıstandan Bolqarıstana ildə təxminən 3 milyard kubmetr təbii qaz nəqli qabiliyyətinə malik olacaq və gələcək bazar tələbatına əsasən bu həcmin illik 5 milyard kubmetrə çatdırılması imkanı var.

## Beynəlxalq Enerji Agentliyi: Azərbaycan və Qazaxıstan OPEC+ sazişinə 118 faiz əməl ediblər



Qeyri-OPEC ölkələri olan Azərbaycan və Qazaxıstanın ötən ay neft hasilatının azaldılması üzrə OPEC+ sazişinə 118 faiz əməl ediblər. AZƏRTAC xəbər verir ki, bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) aylıq hesabatında deyilir. Hesabata görə, avqust ayında qlobal neft təklifi əvvəlki aya görə gündəlik 720 min barrel azalaraq 97 milyon 700 min barrelə çatıb.

Ötən ay qeyri-OPEC ölkələrinin neft hasilatı isə gündəlik 500 min barrel azalaraq 58 milyon barrel olub. 2018-ci ildə qeyri-OPEC ölkələrinin neft təklifi bu ilə görə gündəlik orta hesabla 1 milyon 500 min barrel artaraq 59 milyon 600 min barrelə çatacaq. Gələn il qlobal neft tələbatı isə gündəlik 1 milyon 400 min barrel artaraq 99 milyon 100 min barrel təşkil edəcək. İllik tələbata görə 34 milyon 600 min barrellə Asiya-Sakit Okean ölkələri ilk sırada yer alacaq. Asiya-Sakit Okean ölkələrini 31 milyon 700 min barrellə Amerika qitəsi və 15 milyon barrel ilə Avropa izləyir.

## Neft Fondu Beynəlxalq Valyuta Fondu ilə Azərbaycanda makroiqtisadi sabitliyin tənzimlənməsini müzakirə edib

Beynəlxalq Valyuta Fondu (BVF) ilə Azərbaycanda makroiqtisadi sabitliyin və fiskal dayanıqlığın tənzimlənməsi istiqamətində atılan addımlar müzakirə edilib. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) ictimaiyyətlə əlaqələr departamentindən AZƏRTAC-a bildirilib ki, müzakirələr sentyabrın 13-də ARDNF-in icraçı direktoru Şahmar Mövsümov ilə Beynəlxalq Valyuta Fondunun (BVF) Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azurun başçılıq etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə aparılıb. Görüşdə ARDNF-nin fəaliyyəti, Azərbaycanda makroiqtisadi sabitliyin və fiskal dayanıqlığın tənzimlənməsi istiqamətində atılan addımlar və digər məsələlər müzakirə olunub.



# Qəbul imtahanlarında yüksək nəticələr göstərmiş 102 tələbə Prezident təqaüdünə layiq görülüb

Prezident İlham Əliyev 2017/2018-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, təqaüd 2017/2018-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə veriləcək.

# Yaşar Aydəmirov: işğalçı Ermənistan Azərbaycanın hərbi potensialının artmasından təşvişə düşür

***Ermənistanın müdafiə naziri Viqen Sarkisyanın ermənilərin pilotsuz uçuş aparatlarının istehsalı ilə bağlı açıqlamasına cavab olaraq hərbi ekspert, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov AZƏRTAC-a bildirib ki, Ermənistanın iqtisadi durumu və hərbi sənayesinin hazırkı acınacaqlı vəziyyəti bizə çox yaxşı bəllidir.***



Düşmən ölkənin istifadəsində olan pilotsuz uçuş aparatlarının kustar üsulla hazırlandığı, başqa ölkələrdən ucuz qiymətə alındığı və onların aşağı keyfiyyətli olması da sirr deyil. O ki qaldı, Viqen Sarkisyanın bu kimi əsassız və absurd fikirlərinə, o, ilk dəfə deyil ki, belə çıxışlar edir və bununla da artıq heç kimi təəccübləndirmir. Bu cür çıxışları o, əsasən Azərbaycan tərəfi hər hansı bir ölkə ilə hərbi-texniki əməkdaşlıq istiqamətində uğurlu addım atdıqdan dərhal sonra səsləndirir. Bu isə Azərbaycanın hərbi potensialının artmasından işğalçı dövlətin narahat olaraq təşvişə düşməsi ilə əlaqədardır.

# “Metsamor AES region üçün ekoloji bombadır”




“Elm” nəşriyyatında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq və İnsan Haqları İnstitutunun böyük elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru Rövşən Vəlizadənin “Metsamor AES region üçün ekoloji bombadır” adlı kitabı (rus dilində - “Meüamorskaə AGS - gkoloqiçeskaə bomba dlə reqiona”) çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, bu nəşr az öyrənilmiş, lakin müfəssəl tədqiqat tələb edən bir problemə həsr olunub. Müəllif qeyd edir ki, Çernobıl AES-in və acı təcrübəsinə “Fukusima-1” AES-də baş vermiş faciəyə baxmayaraq növbəti nüvə təhlükəsi mənbəyi - Ermənistan Respublikasının ərazisində yerləşən Metsamor AES ilə bağlı problem həll edilməmiş qalır. Hərçənd, uzun illər boyu qəza vəziyyətində olan bu stansiya təkcə region üçün deyil, bütün dünya üçün təhlükə mənbəyidir.

Öz ambisiyalarını hər şeydən üstün tutan Ermənistanın nüvə proqramının təhlili əsasında sübut edilir ki, Metsamor AES bu proqramın ayrılmaz tərkib hissəsi, nüvə döyüş başlıqları və radioloji silah istehsalı üçün daimi xammal mənbəyi kimi qalmaqdadır. Kitabda təkzibolunmaz faktlar əsasında göstərilir ki, Ermənistan Metsamor AES-i birələrkdən deaktivasiya etmir və mövcud təhlükəyə baxmayaraq bu atom elektrik stansiyasından siyasi manipulyasiyalar üçün istifadə edilməsində maraqlıdır.

Nəşrin elmi məsləhətçisi, AMEA hüquq və insan haqları institutunun direktoru, hüquq üzrə elmlər doktoru, Milli Məclisin deputatı Aytən Mustafazadə kitaba müqəddimə, Azərbaycan Milli Aviasiya Akademiyasının hüquqşünaslıq kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor İbrahim Quliyev isə ön söz yazıb.

Qeyd olunur ki, bu gün ayrı-ayrı dövlətlər, etnik qruplar və terrorçular tərəfindən dünyanı təhdid edən nüvə təhlükəsi həmişəkindən daha ciddi xarakter daşıyır. Bununla belə, dünyanın bir sıra ölkələrində yaranmış vəziyyət bu və ya digər dərəcədə terror təhlükəsi hesab edilə bilər. Beynəlxalq terrorizmin güvəndiyi belə mənbələrdən biri də Metsamor AES-dir. Belə ki, AES kimi obyektlərə qarşı təxribatlar terrorçular üçün çox cəlbedicidir. Özü də təkcə bu təxribatların doğura biləcəyi ağır nəticələrə görə deyil, həm də ona görə ki, bundan ötrü xüsusi hazırlıq və təchizat tələb olunmur. Nəşrdə qeyd edildiyi kimi, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində Metsamor AES üçün anbarlar kimi istifadə olunan obyektlər aşkar edilib. Tədqiqat materiallarına görə, həmin anbarlardakı radioaktiv materialların kütləvi şəkildə oğurlanması və satılması haqda məlumat vardır. Bundan əlavə, Ermənistan ərazisində radioaktiv materiallarının saxlandığı hərbi və sənaye təyinatlı çoxlu obyektlər yaranıb. Beləliklə, həmin tullantılar “çirkli bombalar” yaradılmasında istifadə edilə bilər. Kitabda Ermənistanın soyqırımı siyasətinin tərkib hissəsi olan nüvə proqramı geniş təhlil edilib. Məlumdur ki, erməni terrorizminin kökləri XIX əsrin sonunda, daha dəqiq desək 1890-cı ildə “Daşnaksütyun” partiyasının yaradılması ilə bağlıdır. Çoxsaylı tarixi faktlar təsdiq edir ki, terrorizm, ekstremizm və zorakılıq erməni siyasətinin ayrılmaz tərkib hissələridir.

Kitab geniş biblioqrafik siyahı ilə təchiz olunub.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Soğan iyi verə-verə...

***“SDİ” rəhbəri Leyla Yunusun əri Arif Yunusla Avropa Məhkəməsində Azərbaycan hakimiyyətinin iddiası əsasında TV “France-2” telekanalının qərəzkar və böhtançı jurnalistlərinə qarşı qaldırdığı iddiası əsasında iştirakı, eləcə də, ölkəmizin hüquqlarını müdafiə edən vəkilin qarşısında sualları cavablandırması yerinə hədə-qorxu gəlməsi özü-özlüyündə bütün reallıqları ortaya çıxarmış oldu. İlk növbədə, Avropa Məhkəməsində Azərbaycanın haqlı mövqeyinin sübuta yetirilməsi, nəinki bir sıra avropalı “demokratların”, eyni zamanda “siyasi mühacir” statusu alaraq erməni lobbisinə işləyən milli nökərlərin - Qənimət Zahidin, Aqil Xəlilin və sairlərin keflərinə əməllicə soğan doğramış oldu.***

İndi bunlar noyabr ayına qədər soğan iyi verə-verə Avropa siyasi kuluarlarında qapı-qapı daban döyəcəklər ki, bəlkə bu iy üzərilərindən keçib-gedə. Əslində, haqqın nazilib-üzülməməsi məsələsi son dövrlər qlobal təsdiqləri ilə sübuta yetirilməkdədir. Misal üçün, götürək siyasi dələduz, bir çox ölkələrdə “rəngli inqilablar” və insan ölümləri üzərində biznesini inkişaf etdirən milyarder Corc Sorosu. Hazırda Sorosun da “quyruğu” qapı arasında qalıb. ABŞ-ın rəsmi siyasi dairələri onu terrorçu elan etmək üçün petisiya hazırlayıblar. Hətta hazırkı vaxta qədər onu terrorçu kimi 100 min nəfər tanıyıb da! “Kiminki hara qədər” buna deyiblər, əslində. Maraqlı cəhət də odur ki, Corc Soros bu vəziyyətə Britaniyanın “The Telegraph” qəzetinin Azərbaycan hakimiyyəti əleyhinə yazdığı məlum böhtançı məqaləsi ərəfəsində düşüb. Çünki Ağ Evin ona qarşı qaldırdığı iddiası ilə bu məsələ üst-üstə düşür. İndi gözünə döndüyüm Azərbaycan hakimiyyəti qayıdıb “The Telegraph”ı da verə məhkəməyə və TV “France-2” telekanalının qərəzkar və böhtançı jurnalistləri kimi dirəyə dalana, nə olardı amma...

Ancaq bu olayların, yəni Azərbaycan dövlətinin sözügedən məsələlərdə bir çoxlarını yerində otuzdurması faktlarının qarşısında biz, qeybətcil arvadlartək ona-buna söz aparıb-gətirənlərin də hansı vəziyyətə düşdüklərinin şahidi oluruq. Elə götürək AXCP sədri Əli Kərimlini, Müsavat başqanı Arif Hacılını və s. Zaman-zaman erməni lobbisinin təlimatları əsasında gah Qərbə, gah Şərqə, gah da Şimala işləyən bu ünsürlərin, yəqin ki, deməyə sözləri qalmayıb. Uzağı, Əli Kərimli dar macalda üzünü tutacaq erməni mediasına və orada ölkəmiz və dövlətimiz əleyhinə səslənən fikirləri özününküləşdirib, “dostlar!” müraciəti ilə qoyacaq feysbuk səhifəsinə. Dalınca da özünün on-onbeş saxta profilləri və daha bir neçə zombi dəstəsi ilə döşəyəcək statusları. Adını da qoyacaq ki, “müxalifət lideri Azərbaycan hakimiyyətini belə asıb-kəsdi...”

Qoy elə bu cür də davam etsinlər. Hətta əllərindən gələni beş qaba çəksinlər. Bununla güclü Azərbaycan dövlətinə heç nə olası deyil. Çünki Azərbaycan dövlətini bu cür sərsəmlərdən, hərdəmxəyallardan fərqli olaraq, xalq dəstəkləyir. Nəinki stadionlardakı “mitinqlərinə” 40-50 manatlıq muzd qarşılığında yığışan beş-on nəfər...

*P.S. Odessanın sabiq qubernatoru, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilini Lvovda on minlərlə tərəfdarları qarşıladı. Özü də polis-hərbçi kordonunu yararaq, xalqla birgə Polşa sərhədlərindən Ukraynaya keçdi. İndi Əli Kərimlinin, Arif Hacılnın, bəlkə də ABŞ-da yaşayan Rəsul Quliyevin də Saakaşviliyə əməllicə paxıllıqları tutur ki, görəsən, bizi niyə belə dəstəkləmirlər? Yaxşı olardı ki, varsa, papaqlarını qoysunlar qarşılarına və bunun səbəblərini dərindən araşdırsınlar. Yox, bunu da edə bilməsələr, məmnuniyyətlə, həmin səbəbləri şappıltı ilə üzlərinə çırparam!*



## Saakaşvili Ukraynaya Lenin olmağa gəlib...

MƏTLƏB
Metlebsalahov@mail.ru

*Çoxdandır Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili barədə yazmırdım. Deyəsən, sonuncu dəfə onun prezidentliyi vaxtında -, Rusiya ilə "kəllə-kəlləyə" gəldiyi vaxtlarda yazmışdım. Mişa o vaxtlar Putinə "əzələ" göstərməyə çalışdı və axırda rus ordusu düz Tbilisiyə qədər gəlib, onu "ziyarət" elədi. Düz 2008-ci ilin avqustunda. Hamının başı qarışmışdı Olimpiadaya. Zirək Mişa da bundan yararlanıb, Abxaziyaya girdi. Məqsədi də Rusiyanı, daha doğrusu, Medvedyevin ciyninin arxasından boylanan Vladimir Putini "sındırmaq" idi.*

Düzdür, onun cəsarət edib bir gecədə Rusiyanın tərkibinə qatılan Abxaziyaya girməsi və Gürcüstanın ərazi bütövlüyünü qismən də olsa, bərpa etməsi, özü-özlüyündə yaxşı hadisə kimi tarixdə qaldı. Amma sonralar Moskva onun bu addımını "mükafatlandırmağı" da yaddan çıxarmadı və milyarder Bizanaşvilini Tbilisiyə göndərib, onu siyasi səhnədən birdəfəlik kənara atdı. Sonra da Mişa üz tutdu Ukraynaya. Odessanın qubernatoru olarkən, işi şokolad imperatoru olan Pyetr Poroşenko ilə də düz gətirmədi və ordan da qaçdı getdi Avropaya.

İndi isə, bizim bu yazımızın qəhrəmanı Polşa sərhədini Leninsayağı formada, əsl bolşevik üsulu ilə keçib Ukraynaya "Taxt-tacını" da qurub Lvovda. Özü də çox maraqlıdır ki, Mişa sərhədi əl-qolunu sallaya-sallaya, lap elə gürcü kəndindəki qonşularının çəpərini aşan kimi keçib Ukraynaya.

İndi sual olunur ki, elə həmin bu Polşa, eləcə də, Slovakiya, nə bilim, daha hansı Şərqi Avropa ölkələrinin sərhədlərində, ABŞ və Avropa ölkələrinin yaratdıqları xaos ucbatından Şərqin əksər ölkələrindən canını götürüb qaçan zavallı müsəlmanlara, qışın-soyuğun məhşər vaxtında olmazın müsibətlərini yaşadırdılar, azyaşlı müsəlman körpələrini itlərə yedizdirirdilər, amma bu "kefkom" Mişa, əl-qolunu sallayıb, keçir sərhədi bu yana. NƏDƏN?

Sərhədi keçmək qanunsuzdursa, Avropaya yaşamaq və insanlıq münasibəti görmək dalınca gələn zavallı insanları itlərə yedizdirirdinsə, necə olur ki, M. Saakaşvili hakimiyyət dalınca ABŞ-dan Polşaya keçir, ordan da Ukraynaya girir. Amma ona söz deyən olmur? Biri hakimiyyət dalınca gəlir, o birilər isə, canlarını vəhşilikdən qurtarmaq və sığınacaq istəmək üçün. Avropanın diplomatiyasız və siyasətsiz əsl siması insanda təşviş yaradır...

Qərb, Rusiya ilə bütün mənalarda, müharibəyə Ukraynadan başlayacaq. Artıq Qərb strateqləri Mixail Saakaşvilini Leninsayağı bir tərzdə Ukraynaya yollamaqla, gələcək həngamənin siqnalını vermiş oldular. Görünür, Qərbdəki başbilənlər Petro Poroşenkonu Rusiya ilə gələcək müharibənin "ön cəbhəsində" komandan kimi görmək istəmirlər və buna görə də, "şokolad kralını", odlu çıxışları ilə kütləni ələ almağı bacaran M.Saakaşvili ilə dəyişməyi qərara alıblar. Əslində, prezidentdən daha çox biznesmen kimi imic sahibi olan P.Poroşenkonun Qərbin yeni planlarında yer almayacağı çoxdan bəlli idi. Belə olan halda isə, Pribaltika və Gürcüstana NATO ordusunu cəmləşdirən Qərb, bu dəfə M.Saakaşvili ilə Rusiyaya qarşı siyasət yürütməyə qərar verib. Özü də cəbhənin ön səngərində-Ukraynada. Bu dəfə işlərin necə alınacağını, M.Saakaşvilinin Qərb üçün Ukraynada ikinci Lenin olub-olmayacağını dəqiq deyə bilmərik. Hər şeyi zaman göstərəcək. Amma dəqiq olan odur ki, M.Saakaşvili Ukraynanı "xaxol çömçəsi" kimi qarışdırmağa gəlib...

# Elmar Məmmədyarov Fam Binh Minhlə görüşüb



Xarici işlər naziri Elmar Məmmədyarov Vyetnam Sosialist Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Fam Binh Minhlə görüşüb. Xarici İşlər Nazirliyindən SİA-ya bildirilib ki, səfərdə Azərbaycan nümayəndə heyətinin tərkibində Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının üzvü Rauf Əliyev də iştirak edir. Nazirlər Azərbaycan və Vyetnam arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə dair hər iki dövlətin başçıları tərəfindən ünvanlanmış təbrik məktublarını təqdim ediblər.

Elmar Məmmədyarov Azərbaycan və Vyetnam arasında iqtisadi və ticarət əlaqələrin genişləndirilməsi üçün çoxsaylı imkanlar olduğunu və bu kimi imkanların üzə çıxarılması və yeni əməkdaşlıq sahələrinin araşdırılması məqsədilə qarşılıqlı biznes forumların keçirilməsinin faydalı olduğunu deyib. Bu xüsusda, 2015-ci ildə yaradılmış Vyetnam və Azərbaycan arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın rolunu xüsusi vurğulayıb. Şimal-Cənub nəqliyyat dəhlizinin imkanları barədə həmkarına məlumat verən E. Məmmədyarov Avropaya ixracın artırılmasında maraqlı olan Vyetnamın da bu layihədən faydalana biləcəyini və nəticə etibarilə, Vyetnamdan Avropaya olan nəqliyyat marşrutunun qısalacağını diqqətə çatdırıb. Azərbaycanlı nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqlar prosesi barəsində məlumat verərək, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin Ermənistan tərəfindən hələ də yerinə yetirilmədiyini və Ermənistan hərbi qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində mövcudluğunun münaqişənin həllinə əsas maneə olduğunu vurğulayıb.

Fam Binh Minh iki dövlət arasında siyasi dialoqun iqtisadi sahədə də davam etdirilməsinin vacibliyini vurğulayaraq, ticarət dövriyyəsinin artırılması üçün potensial olduğunu bildirib. Azərbaycanın uğurlu enerji siyasətindən bəhrələnərək, bu sahədə əməkdaşlığın intensivləşdirilməsini təklif edib. Vyetnamlı nazir nəqliyyat-logistika sahəsində əməkdaşlığı iki ölkənin əlaqələrinin inkişafında yeni səhifə ola biləcəyini deyib. O, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsinə toxunaraq, Vyetnamın neft sahəsində Azərbaycanda təhsil almış mütəxəssislərin çalışdığını xatırladtı, eləcə də Vyetnamın Veso Petrol şirkətinin yaradılmasında azərbaycanlı neftçilərin xüsusi rol oynadığını bildirib. Görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

# Erkan Özoral: Aprel döyüşləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi

Türkiyə ilə Azərbaycan iki qardaş dövlətdir. Hər iki ölkənin ən böyük problemi Qarabağ məsələsidir. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib.

Diplomat bildirib ki, Türkiyə Azərbaycanla birlikdə bu problemin ən qısa zamanda qardaş ölkənin ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllini arzulayır: "Problemin qısa zamanda həllini və qaçqın və məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtmasını istəyirik. Hər şeydən önəmli bu problemin sülh yolu ilə həll edilməsidir. Müzakirələrin nəticə verməsi üçün hər kəs məsuliyyətini dərk etməlidir. Ötən il baş verən aprel döyüşləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi. Hər kəs bunu gördü. Buna görə də lazım gələrsə, münaqişənin həlində format dəyişikliyinə gedib, diplomatik çalışmaların nəticə verməsi üçün əmək sərf edilməlidir".



# Quba və Mingəçevir şəhərlərində "ASAN xidmət" mərkəzi açılacaq




Cari ilin sonunda Quba və Mingəçevir şəhərlərində də "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev bu barədə məlumat verib. Ülvi Mehdiyev bildirib ki, bu, "ASAN həyat" kompleksi adlanır, yəni, inzibati binadan əlavə, burada müxtəlif ictimai iaşə, gənclərimiz üçün məşğulluq mərkəzləri də yaradılacaq. Ümumilikdə, bu komplekslərin ilin sonunadək həm Qubada, həm də Mingəçevirdə fəaliyyətə başlaması nəzərdə tutulur.

## Dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 132 illiyi qeyd olunacaq

Sentyabrın 18-də görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 132 illiyinə həsr edilmiş tədbir keçiriləcək. AZƏRTAC xəbər verir ki, Üzeyir Hacıbəyli IX Beynəlxalq Musiqi Festivalı çərçivəsində baş tutacaq tədbir sənətkarın adını daşıyan ev muzeyində gerçəkləşəcək. Tədbirdə dahi bəstəkarın həyat və yaradıcılığına nəzər salınacaq, milli musiqimizin inkişafındakı xidmətləri vurğulanacaq. Konsert proqramı ilə davam edəcək tədbirdə görkəmli bəstəkarın yaradıcılığına müraciət ediləcək.

# Vergi güzəştləri kənd təsərrüfatının əsaslı şəkildə inkişafını və investisiya qoyuluşlarının artırılmasını təşviq edir



Qeyri-neft sektorunun prioritet sahəsi hesab edilən kənd təsərrüfatının inkişafı, məhsul istehsalının və satışının stimullaşdırılması, Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir. Bu sahədə fermerlərin, sahibkarların fəaliyyətinə dövlət tərəfindən ciddi dəstək də verilməkdədir. Eyni zamanda, sahibkarların, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olanların fəaliyyətini stimullaşdırmaq üçün qanunvericilik səviyyəsində də mühüm addımlar atılıb. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları, 1999-cu ildən torpaq vergisi istisna olmaqla, Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilib və bu güzəştlər kənd təsərrüfatı məhsullarının birbaşa istehsalı ilə məşğul olan şəxslərə tətbiq edilir. Həmin şəxslər, həm də istehsal etdikləri kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olurlar. Lakin kənd təsərrüfatı məhsullarının istehsalçısı olmayan şəxslər tərəfindən istehsalçılardan tədarük edilərək digər şəxslərə satılması, habelə, hər hansı formada emal edilməklə satılması ümumi qaydada vergiyə cəlb edilir.

Ümumiyyətlə, Vergi Məcəlləsinin müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr mənfəət və əlavə dəyər vergisindən, sadələşdirilmiş sistem üzrə vergidən və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərin əmlak vergisini ödəməkdən azad ediliblər.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına müvafiq vergi güzəştlərinin verilməsi kənd təsərrüfatının əsaslı şəkildə inkişafını və bu sahəyə investisiya qoyuluşlarının artırılmasını təşviq edir. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına 1999-cu ildən müvafiq vergilər üzrə güzəştlər tətbiq edilir: vergi qanunvericiliyinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları torpaq vergisi istisna olmaqla, 2019-cu ilin yanvarın 1-dək Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş mənfəət vergisini, gəlir vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad ediliblər.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlara bu sahədə güzəştlərin edilməsi məqsədilə bəzi malların idxalının ƏDV-dən azad edilməsi ilə yanaşı, onların ölkə daxilində satışı da ƏDV-dən azad edilib. Buraya damazlıq heyvanların idxalı və satışı, toxum və tinglərin idxalı və satışı, mineral gübrələrin, pestisidlərin idxalı və satışı, toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən, laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı, kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı, bilavasitə, kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı aiddir. Mövcud qanunvericilik kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan şəxslərin də, bilavasitə əlaqəli olan fəaliyyət sahəsinə uyğun investisiya təşviqi sənədini almasına və həmin sənəd əsasında müvafiq vergi güzəştlərindən istifadə etməsinə imkan yaradıb. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2016-cı il yanvarın 1-dən hüquqi şəxslər və fərdi sahibkarlar Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi qərarlara uyğun olaraq verilən investisiya təşviqi sənədi əsasında əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən, o cümlədən, həmin sənədi aldığı tarixdən əldə etdiyi gəlirin 50 faizi məbləğində gəlir və mənfəət vergilərindən 7 il müddətinə azaddır.

*"Səs" Analitik Qrupu*

# Müdafiə naziri İsrail Silahlı Qüvvələrinin Komanda və İdarəetmə Mərkəzində olub



İsrailə rəsmi səfəri çərçivəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti İsrail Silahlı Qüvvələrinin Komanda və İdarəetmə Mərkəzində olub. SİA-nın Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, qurumun strukturu və fəaliyyəti ilə tanış olan Müdafiə nazirinə bildirilib ki, Mərkəzin əsas məqsədi qoşunların təşkili, idarə olunması, onlara nəzarət və digər tapşırıqlardan ibarətdir.



# Mənfi ilə müsbət heç vaxt üst-üstə düşməyib...

**RƏFİQƏ**

***Ataların "həyasızlığın son həddi" ifadəsi sanki AXCP-Müsavatın boyuna biçilib. Çünki hər iki partiya hər seçkiərəfəsi "birlik" adı ilə min oyundan çıxır. Fikirləşirsən ki, bu, nə oyundur? Bəs bunların arxasında dayanan səbəb nədir? Əslində, bu sualın cavabı çoxdan verilib. Belə ki, bu gün müxalifətdə olan siyasi partiya sədrləri də, etiraf edirlər ki, AXCP- Müsavat qarşıdurmasında əsas məqsəd anti-Azərbaycan dairələrin ölkəmizdə çaşqınlıq yaratmaq üçün ayırdığı qrantdan daha çox qamarlamaqdır. Çünki ölkəmizin inkişafını, beynəlxalq aləmə sürətli inteqrasiyasını və reytinqinin yüksəlməsini qəbul etmək istəməyən Müsavat-AXCP rəhbərlərinin qarşıdurması artıq pik həddinə çatıb.***

"Oğru elə qışqırdı ki, doğrunun bağrı yarıldı" atalar sözü Müsavat ilə AXCP-də tamam başqadır - "oğru elə qışqırır ki, oğrunun bağrı çatlayır". Yəni burada doğru yoxdur, ikisi də oğrudur. Çünki bu insanların savadı, dünyagörüşü ambisiyalarından qat-qat aşağıdır və indiki halda, anlayırlar ki, heç bir ictimai dəstəkləri yoxdur. Bu səbəbdən, gündəmdə qalmaq üçün növbəti min cür hoqqa olan mitinq, aksiyalar keçirməkdir.

Elə Müsavat Məclisinin üzvü Valeh Hümmətoğlu da facebook səhifəsində and-aman edir ki, ümumxalq mitinqinin vacibliyini deyərək Müsavatla "Milli Şura" arasında birgə mitinq keçirməyə əslə qol çəkmədiyini bildirir: "Əyri oturub, düz danışaq. Hansısa Əli Kərimlinin əl quyruğu olan Cəmil Həsənlinin sədrlik etdiyi "Milli Şura" ilə bir araya gəlib mitinq keçirmək mümkünsüzdür. Mənfi ilə müsbət heç vaxt üst-üstə düşməyib və düz gəlməz də. Bir də, AXCP-Müsavat nə vaxt bir oldu ki, indi də birgə mitinq keçirsin".

## Qrant dartışması

Düz deyirsən, ay qardaş, o "Milli Şura" ki, Kərimlinin əlindədir, qrant sizə çatmaz. Əgər arxada qalan seçkilərin tarixinə nəzər salsaq, görərik ki, elə siz deyəndir. Baxın, bu partiyalar seçkilərə guya birgə qatılmaq üçün əvvəlcədən qondarma bir qurum yaradırlar. Seçki yaxınlaşanda isə, hansı partiyanın birinci olacağı barədə mübahisələr başlanır. Bir də birincilik davasında heç də əsas məqsədin seçkilərdə qalib gəlməsi deyil. Seçkilər ərəfəsində radikal müxalifəti ortalığa atan ermənipərəst dairələr hakimiyyətin əleyhinə daha çox iftira atanlara çirkli pullardan çox pay ayıracağını deyir. AXCP ilə Müsavat rəhbərlərinin isə əsas davası bu çirkli pullardan kimin daha çox qamarlaması üstündə baş verir. Dünənə qədər birlik görüntüsü yaratmaq istəyən bu iki partiya mənsubları sonradan bir-birini ən kəskin şəkildə rüsvay edirlər.

Beləliklə, uzun illərdir bu çatışmazlığın əzabını çəkən müxalifət, məhz bu gün də həmin baryeri aşa bilmədiyini yaxşı bilir. Görünür, illər, on illər keçməyinə baxmayaraq müxaliflərin düşüncəsi və təfəkkürü dəyişmək iqtidarında deyil. Bu isə uzun illər ərzində düşərgədə qüvvələr balansının dəyişməməsinin əsas səbəblərindəndir. Hətta bundan sonra balans dəyişsə belə, bunun ənənəvi düşərgəyə heç bir müsbət təsiri olmayacaq. Çünki mənfi ilə müsbət heç vaxt üst-üstə düşməyib...

# İrəvan xanlığının tarixindən bəhs edən əsərlərin təqdimatı olub

***Dünən AMEA-nın Tarix İnstitutunda "İrəvan xanlığının paytaxtı -İrəvan şəhəri", "Erməni vandallarının yox etdiyi İrəvan qalaları", "İrəvan xanlığının mahalları" və "İrəvan xanlığının əhalisi" adlı əsərlərin təqdimat mərasimi keçirilib.***



Təqdim olunan əsərlər Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "İrəvan xanlığının tarixinə dair 4 adda broşürun nəşr olunması" layihəsi çərçivəsində ATİB tərəfindən çap olunub. Layihənin rəhbəri və nəşrlərin elmi redaktoru Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, texniki redaktoru isə riyaziyyat üzrə fəlsəfə doktoru Mehri Xanbabayevadır.

"İrəvan xanlığının paytaxtı - İrəvan şəhəri", "Erməni vandallarının yox etdiyi İrəvan qalaları" və "İrəvan xanlığının mahalları" adlı kitabların müəllifi tarixçi-alim Güntəkin Nəcəfli, "İrəvan xanlığının əhalisi" adlı əsərin müəllifi isə tarixçi-alim İradə Məmmədovadır. Təqdimat mərasimində çıxış edən akademik Yaqub Mahmudov bildirib ki, yeni nəşrlər ermənilərə, onların havadarlarına və bütövlükdə, dünya ictimaiyyətinə ciddi mesajdır. Müasir Ermənistan Respublikasının yerləşdiyi ərazinin Azərbaycanın tarixi torpaqları olduğunu deyən alim "Kitabi-Dədə Qorqud" dastanlarında təsvir olunan bir çox mühüm tarixi hadisələrin İrəvan xanlığının ərazisində cərəyan etdiyini diqqətə çatdırıb: "Çar Rusiyası erməniləri İran və Osmanlı İmperiyası ərazisindən Cənubi Qafqaza köçürdükdən sonra Azərbaycan xalqına qarşı etnik təmizləmələr, zorakı deportasiyalar və soyqırımları dövrü başlanıb. Nəhayət, 1918-ci il mayın 29-da Şimali Azərbaycanda - keçmiş İrəvan xanlığının ərazisində erməni dövləti yaradılıb. Ermənilər, nəinki Cənubi Qafqazın, hətta Asiya qitəsinin yerli əhalisi deyil".

Təqdim olunan əsərlərin Prezident İlham Əliyevin təşəbbüsü ilə yazıldığını deyən Y.Mahmudov qeyd edib ki, hazırda nəşrlərin erməni, fars və ərəb dillərinə tərcümə olunması istiqamətində işlər davam etdirilir.

Məlumat verilib ki, "İrəvan xanlığının paytaxtı - İrəvan şəhəri" adlı kitabça Azərbaycanın qədim şəhərlərindən İrəvanın şanlı tarixinə həsr olunub. Əsərdə İrəvan toponimi, şəhərin tarixi, səyyahların təsviri haqqında mühüm məlumatlar və illüstrasiyalar öz əksini tapıb. Nəşrdə qeyd edilir ki, XVI əsrdə Osmanlı yürüşləri zamanı sultanın katibi olmuş İbrahim Rəhimizadə İrəvan şəhərini "Azərbaycan mülkünün gözü" adlandırıb. "Erməni vandallarının yox etdiyi İrəvan qalaları" adlı kitabça isə İrəvan bölgəsində mövcud olan və erməni vandalları tərəfindən amansızcasına məhv edilən Azərbaycan qalalarının tarixinə, o cümlədən, məşhur İrəvan və Sərdarabad qalalarının XIX əsrin birinci rübündə baş vermiş Rusiya-İran müharibəsi zamanı yadelli işğalçılara qarşı apardığı şanlı mübarizə tarixinə həsr olunub.

"İrəvan xanlığının mahalları" adlı kitabçada Azərbaycanın qədim dövlətçilik tarixinin ayrılmaz parçası olan İrəvan bölgəsinin, o cümlədən, Çuxursəd bəylərbəyliyinin və İrəvan xanlığının inzibati bölgüsü, "İrəvan xanlığının əhalisi" adlı kitabçada isə İrəvan əhalisinin etnik və dini mənsubiyyəti, məşğuliyyəti və xanların əhali siyasəti təqdim edilib.

Y.Mahmudov bu günlərdə İranda nəşr olunan "Artsax" adlı kitabda tarixi Azərbaycan torpaqlarının Ermənistan ərazisi kimi qeyd edildiyini və yaxın günlərdə Tarix İnsitutunun bununla bağlı addım atacağını diqqətə çatdırıb.

Təqdimat mərasimində çıxış edən Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhrəmov, Azərbaycanın yeni tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov və digərləri İrəvanın Qədim Azərbaycan torpağı olduğu barədə tarixi gerçəkliklərin dünya ictimaiyyətinə daha ətraflı çatdırılmasının vacibliyindən, ermənilərin tarixi həqiqətləri daim saxtalaşdırmağa cəhd göstərdiklərindən danışıblar.

***ZÜMRÜD***

# "İran iqtisadi sahədə Azərbaycanla əməkdaşlığa böyük maraq göstərir"

AZƏRTAC xəbər verir ki, bunu iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov sentyabrın 13-də "Caspian İnd Expo" beynəlxalq sənaye sərgisində jurnalistlərə müsahibəsində deyib. "Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi inkişaf strategiyası Azərbaycanın davamlı inkişafına, ölkə sənayesinin şaxələndirilməsinə, ilk növbədə isə qeyri-neft sektorunun inkişafına yönəlib. Ölkənin iqtisadi potensialı Azərbaycanın tarixi tərəfdaşlarının böyük marağına səbəb olub və bu mənada bu sərginin də özünəməxsus rolu var", - deyə N.Səfərov bildirib.

Nazir müavini vurğulayıb ki, sərgidə İran İslam Respublikasının şirkətlərinin çoxluq təşkil etməsi önəmli bir göstəricidir. Belə ki, Azərbaycanla İran arasında siyasi və iqtisadi münasibətlərin inkişafı, əlaqələrin getdikcə möhkəmləndirilməsi xüsusi əhəmiyyətə malikdir: "Bildiyimiz kimi ölkəmizdə İran İslam Respublikası ilə birgə bir neçə irimiqyaslı sənaye layihələri icra olunmaqdadır. İlk növbədə Neftçala sənaye zonasında icra olunan avtomobil zavodu layihəsini xüsusi qeyd etmək istərdim. Tikinti işləri uğurla həyata keçirilir. On min avtomobil istehsal etmək gücünə malik müəssisədə 450-ə yaxın işçi çalışacaq. Bu, Neftçala və ətraf rayonların iqtisadi inkişafına ciddi təsir göstərəcək". N.Səfərov əlavə edib ki, digər mühüm layihə isə Pirallahı Sənaye Parkında əczaçılıq zavodunun tikintisi istiqamətində işlərin aparılmasıdır. Burada buraxılan məhsulların çeşidləri artıq müəyyən edilib.

# Britaniyalı nazir Azərbaycana gəlir

Böyük Britaniyanın Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan Azərbaycana gəlir. Bu barədə SİA-ya Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən məlumat verilib. Onun sabah Bakıda "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun 2050-ci ilədək işlənilməsinə dair müqavilənin imzalanması mərasimində iştirak edəcək. 2016-cı il dekabrın 23-də SOCAR və BP-nin əməliyyatçısı olduğu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) AÇG-nin 2050-ci ilədək işlənməsinə dair razılaşmanın prinsiplərini imzalayıblar. Tərəflər həmçinin yataqlar blokunun 2050-ci ilədək işlənməsi üçün niyyət məktubu imzalayıblar. Razılaşma AÇG-yə irihəcmli sərmayələrə və blokun işlənməsinin davam etdirilməsinə yol açacaq. Hazırda AÇG-də gündəlik neft hasilatı təxminən 620 min barreldir. Tərəfdaşlıq üzrə işləri BP idarə edəcək.



# YAP Nəsimi rayon təşkilatında qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirildi



***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında 2017-2018-ci tədris ili üçün ali təhsil müəssisələrinə qəbul imtahanlarında rayon üzrə yüksək bal toplayan 650-dən yuxarı tələbələrlə ənənəvi görüş keçirildi. Tədbiri giriş sözü sözü ilə açan Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı tələbə adını qazanmış gəncləri təbrik edərək bildirib ki, müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür: "Ulu Öndər Heydər Əliyevin milli təhsil quruculuğu sahəsində başladığı islahatlar bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda təhsil dövlətimizin başçısının daim himayəsi altındadır".***

Millət vəkili ölkə rəhbərinin apardığı genişmiqyaslı sosial-iqtisadi siyasət nəticəsində ölkəmizin sürətli inkişaf dövrünü yaşadığını, ölkə həyatının bütün sahələrində olduğu kimi, təhsildə də böyük uğurların əldə olunduğunu bildirərək, bütün bu nailiyyətlərin insan kapitalının inkişafına təkan verəcəyinə, ölkəmizin iqtisadi inkişafının davamlı və dayanıqlı olmasını təmin edəcəyinə əminliyini ifadə edib.

M.İbrahimqızı dövlətimizin gənc nəslə böyük qayğı ilə yanaşdığını bildirərək, qeyd edib ki, onların da böyük əksəriyyətini tələbələr təşkil edir. Xalqımızın daim gənclərə güvəndiyini vurğulayıb. Gəncləri təhsildə qazandıqları yüksək nəticə münasibətilə bir daha təbrik edərək, uğurlar arzulayıb və eyni zamanda, bu uğurun əldə edilməsində böyük zəhməti olan müəllim və valideynlərinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən millət vəkili Şahin İsmayılov gənclərin ölkə həyatındakı rolundan və onlara göstərilən dövlət qayğısından danışıb: "Ölkədə gənclərə qayğı gündən-günə artır. Onlara yüksək etimad göstərilərək, məsul vəzifələrdə çalışmalarına şərait və imkan yaradılır. Gəncləri bu etimaddan yararlanmağa çağırıb və onları təbrik edərək, dövlətimiz üçün layiqli bir vətəndaş olmaları naminə gələcək həyat yollarında uğurlar arzulayıb".

Sonra qəbul imtahanlarında yüksək nəticələr əldə edən tələbələrə hədiyyələr təqdim olunub.

***Z.BAYRAMOVA***

# Ermənistanda ictimai-siyasi vəziyyət daha gərgin hal almağa başlayıb

## *Erməni siyasi ekspertləri Sarkisyan rejiminə "od püskürməkdə" davam edirlər*

***Ermənistanda hakim Respublika Partiyasının dövlət-idarəçilik sisteminə qarşı artan narazılıqlar artmaqda davam edir. Belə ki, Serj Sarkisyanın istər daxili, istərsə də xarici siyasət baxımından ardıcıl səhvlərə yol verməsi, diplomatik uğursuzluqları və get-gedə Rusiyadan daha asılı hala düşməsi xalqın bu ölkəni kütləvi şəkildə tərk etməsi, həmçinin, Ermənistanın müstəqilliyini itirməsi kimi qiymətləndirilir. Hətta Ermənistanın Rusiyanın forpostu olmasına rəğmən, Qərbə doğru meyillənməsinin də bu ölkəni və xalqı xilas etməyəcəyini vurğulayan erməni analitikləri və ekspertləri gələcəyə pessimist baxışlarnı nümayiş etdirirlər. Saytlar və agentliklər bir neçə erməni siyasi ekspertlərinin Ermənistanın birinci informasiya saytına ("1in.am") verdikləri açıqlamalarını təqdim edirlər.***










### Artur Sakunts: "Sanki hakimiyyət bu cür siqnal verir: "Yaxşı edirik, siz elə ölməlisiniz"

"Əgər Putinin mövqeyi Ermənistanın maraqlarına qarşıdırsa, Ermənistanda elə bir siyasi güc yoxdur ki, vətəndaşlarına yaranan həmin təhlükənin qarşısını ala bilsin". Bu fikirləri Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisinin rəhbəri, hüquq müdafiəçisi Artur Sakunts adıçəkilən erməni saytına müsahibəsində deyib. Onun sözlərinə görə, baş verənlər onu təsdiq edir ki, Ermənistan müstəqil deyil: "Ermənistanda siyasi sistem baxımından müstəqil idarəçiliyə bağlı olacaq heç bir faktor yoxdur. Ermənistanın suverenliyi üçün bir nömrəli çağırış Putin deyil və bu barədə analitiklər də, ekspertlər də danışırlar, ancaq hakimiyyət və siyasi sistem, ümumiyyətlə, bu barədə heç nə demir. Bundan əlavə, sonrakı məqamlarda da biz sözügedən mövzuda hakimiyyət tərəfindən heç bir ictimai fikirləri eşitməyəcəyik. Sanki hakimiyyət bu cür siqnal verir: "Yaxşı edirik, siz elə ölməlisiniz".

Artur Sakunts əlavə edib: "Bu gün ölkədə elə bir mühit formalaşıb ki, əgər Putin istənilən mövzuda öz baxışını sərgiləyərsə və bu baxış ermənilərin maraqlarına cavab verməzsə belə, heç kim cınqırını çıxara bilməz."

### Gevoqr Melikyan: "Yaxşı olardı ki, insanlar Türkiyənin deyil, Ermənistanın parçalanması perspektivlərindən danışaydılar"

Digər erməni politoloqu, Ermənistanın Beynəlxalq Əlaqələr İnstitutunun eksperti Gevoqr Melikyan isə daxili siyasətlə yanaşı, xarici siyasətdə də kəskin fəsadlara yol verildiyini deyir, hadisələrin proqnozlarının doğru verilmədiyini bildirir. Belə ki, bu günlərdə Türkiyədə olduğunu və bu ölkənin siyasi dairələrinin Ermənistan barədə, ümumiyyətlə narahatçılıq keçirmədiyini müşahidə etdiyini deyən Melikyana görə, əksinə, Ermənistanda tamamilə fərqli düşünürlər. Bu cür yanaşmalar isə fərqli olmaqla yanaşı, həm də doğru nəticələrə gətirib-çıxarmır. "Türkiyədə apardığım müzakirələrdən belə nəticəyə gəldim ki, Türkiyə üçün erməni-türk münasibətləri heç vaxt prioritet olmayıb, bu gün də eyni vəziyyət hökm sürür".

Onun sözlərinə görə, hazırda Türkiyə üçün daha böyük və vacib məsələlər mövcuddur ki, onlar qarşısında erməni-türk münasibətləri heç nədir.

O, qeyd edir ki, Ermənistanın bu məsələyə yanaşması tamamilə yanlışdır: "...Əgər Türkiyə parçalanarsa, biz bundan səmərə əldə edəcəyik. Bu, çox primitiv yanaşmadır. Yaxşı olardı ki, insanlar Ermənistanın parçalanması perspektivlərindən danışaydılar. Çünki bu gün insanlar, Türkiyədən fərqli olaraq, Ermənistanı kütləvi surətdə tərk edirlər. Bu, erməni tərəfinin sadəlövhlüyünün nəticəsidir. Hamı oturub gözləyir ki, hansı superdövlət Türkiyəni parçalamağa nail olacaq, ancaq bu düşüncələrdə qalsalar, sabah Ermənistanın parçalanmasını heç kim sığortalaya bilməz".

Göründüyü kimi, Serj Sarkisyanın xarici siyasəti də Ermənistanı, necə deyərlər, yanı üzərində qoyub, bu isə ölkənin gələcəyinin yaxşılığa doğru getməsinə heç bir şərait yaratmır.

### Yeqişe Petrosyan: "Görünən budur ki, onlar xalqın qanını ya gizli, ya da həyasızcasına açıq şəkildə sorurlar"

Digər erməni politoloqu Yeqişe Petrosyan isə bildirir ki, əgər sistem eynidirsə, şəxsiyyətlərin dəyişilməsi heç nəyi dəyişməyəcək: "Mən bu barədə demişdim, bu gün də sözlərimin üzərində qalıram".

"Kimsə zahirən cəlbedici görünə bilər, başqası çılğın danışan, ancaq belə bir vəziyyətdə bataqlıqda batan xalq üçün heç nə dəyişmir"-deyə qeyd edən Yeqişe Petrosyan əlavə edib ki, hakimiyyətdə oturanların hər biri yalançıdır: "Mən onlara yalançı nəzəri ilə baxıram. Mənim üçün hakimiyyətdə kim hara getdi, kim haradan gəldi, ümumiyyətlə maraqlı deyil. Görünən budur ki, onlar xalqın qanını ya gizli, ya da həyasızcasına açıq şəkildə sorurlar. Onlar, öz əməllərini davam etdirməklə, ölkənin inkişafının qarşısını almaqda davam edərlərsə, bu zaman bizim mübarizə aparmaqdan başqa çarəmiz qalmır".

Nəticə etibarilə fakt ortadadır və yuxarıda qeyd edilən fikirləri Ermənistanın, demək olar ki, ən tanınmış politoloqları səsləndirirlər. Bu isə işğalçı ölkənin çox qısa zaman kəsimində süquta uğraması anlamını daşıyır.

**Rövşən RƏSULOV**

# Maliyyə möhtəkiri, yoxsa buqələmun

## Azərbaycanın dağıdıcı müxalifətinin də himayədarı olan dələduz milyarder Corc Sorosun terrorçu kimi tanınması reallığa çevrilir

***Demokratiya, insan haqları, ədalət prinsipləri və şəffaflıq maskası geyinmiş bəzi xarici məkrli təşkilatların Azərbaycanda keçirilməsi nəzərdə tutulan seçkilər ərəfəsində fəallaşmaları yenilik deyil. Yəni bu kimi hallar zaman-zaman baş verib. Hələ 2003-cü ilin 15-16 oktyabr iğtişaşları zamanı ortaya çıxan fakt onadan ibarət idi ki, İ.Qəmbərin qarşıdurmalar və təxribatlar törətməsinə Corc Soros və onun fondunun əsas dəstək və maliyyə yardımı xüsusi rol oynayıb. Bunu cox sonralar İ.Qəmbərin özü də dolayısı ilə etiraf etmişdi. 2005-ci il parlament seçkiləri ərəfəsində də Musavat başqanı ABŞ konqresmeni Con Makkeynə və Corc Sorosa dəstək göstərmələri üçün məktubla müraciət etmişdi. Növbəti dəfə, 2013-cü il prezident seçkiləri ərəfəsində peyda olan C.Soros yenə də müxalifətlə əlaqələr qurmağa nail olmuşdu. Azərbaycan haqqında qərəzli mövqeyi 2017- ci ilin ortalarından başlayan Soros təhrif olunmuş, yanlış hesabatlarda və Avropa mətbuatında yayımlanmasına nail olduğu dezinformasiyaların fonunda özünü büruzə verir.***



C.Sorosun anti-Azərbaycan mövqeyi təəccüblü deyil. Dünyada "xaosun banisi" adını alan bu dələduz milyarder şəxs bəzən maliyyələşdirildiyi təşkilatlar vasitəsilə, bəzən də açıq şəkildə Bakını hədəfə alır. Anti-Azərbaycan mövqeyi üzərində qurumların maliyyəsini təmin edən Corcun Azərbaycanda öz maliyyə maraqları mövcuddur və bu baxımdan, onun anti-Azərbaycan fəaliyyəti şiddətli xarakter alıb. Lakin Azərbaycanda güclü dövlətçilik prinsipləri, həmçinin, xalq-hakimiyyət birliyi sayəsində, hər dəfə olduğu kimi, bu dəfə də bu maliyyə fırıldaqçısının planları ifşa olunaraq iflasa uğrayacaq.

Trampın prezident seçilməsi ilə razılaşmayan və seçki kampaniyalarına uğursuz olaraq 20 milyon vəsait sərf edən, nəticədə, uduzduğunu anlayan Soros bu uğusuzluqla barışmır. Belə ki, hələ də Trampın tezliklə prezident postundan uzaqlaşacağı barədə, nəinki proqnozlar verir, hətta mütəmadi olaraq, dezinformasiyalar buraxmaqda davam edir. Corc Sorosun fəaliyyətinin ABŞ-da necə qiymətləndirilməsinə diqqət yetirsək, görərik ki, onun terrorçu elan olunması ilə bağlı ABŞ prezidenti Donald Trampa ünvanlanan, Ağ Evin rəsmi saytında yerləşdirilən və mətnində "Soros mütəmadi qaydada və bilərəkdən ABŞ-dakı stabilliyi pozmağa yönəlmiş addımlar atıb" qeyd edilən petisiyanı 140 min nəfər imzalayıb.

Sorosun maliyyə möhtəkirliyi bütün dünyaya məlumdur. Ona görə də, avrobondların reallaşdırılması ilə bağlı onun təkliflərinə iqtisadçılar şübhə ilə yanaşırlar. Corc Soros birjada avroya qarşı oynamayacağını bildirsə də, heç kəs ona inanmır. Dünya 1992-ci ildə Sorosun funt sterlinqlə bağlı spekulyasiyada bir gündə 1 milyard dollar qazanmasını hələ unutmayıb. 1992-ci ilin sentyabr ayının 16-sı İngiltərə tarixində "Qara çərşənbə" kimi yadda qalmışdır. Sorosun keçirdiyi maliyyə əməliyyatları nəticəsində, funt-sterlinqin dəyəri birdən-birə 12 % aşağı düşür ki, bu da Sorosun bir gecədə 1,1 milyard dollardan çox gəlir qazanmasına səbəb olur. Bundan sonra tanınmış missioneri "İngiltərə bankını dağıdan şəxs" adlandırmağa başlayırlar. Soros özü isə həmin çərşənbəni "Ağ çərşənbə" adlandırır. Dünyanın bir sıra ölkələrində Soros fondlarının fəaliyyəti dayandırılıb və ya məhkəməyə verilib. 2002-ci ildə Paris Məhkəməsi Corc Sorosu "Societe Generale" bankı haqqında məxfi məlumatları bilməsindən sui-istifadə edərək, onun səhmlərinin alqı-satqısından böyük qazanc götürdüyü üçün 2,2 mln. avro məbləğində cərimələmişdir. 2009-cu ildə Macarıstanın ən böyük bankı "OTP Bank Nyrt"un səhmlərinin məqsədli şəkildə dəyərdən düşməsi haqqında spekulyasiya yaradaraq, bundan faydalandığı üçün "Soros Fund Management" 2,2 mln. dollar cərimələnmişdir.

Təcrübə göstərir ki, Soros hər dəfə maliyyə fırıldaqlarına imza atmazdan öncə, informasiya vasitələrinin köməyi ilə müxtəlif istiqamətlərdə hücumlar edir və buna görə də, məşhur media qurumlarını maliyyələşdirir. Heç bir mənəvi dəyərlərə hörmət etməyən Soros insan haqları müdafiəçisi kimi çıxış etməsinə baxmayaraq, marixuananın leqallaşdırılması təklifini irəli sürərək, ABŞ daxilində belə öz maraqları çərçivəsində çıxış edir. Bu baxımdan, demək olar ki, Corc Soros, həqiqətən də, şər dahisidir.

***İnam Hacıyev***

# Əli Kərimli - natəmiz iddiaların "əvəzolunmaz" lideri

## Və yaxud zombiləşmiş qaragüruhçu dəstə başçısının gerçək siması



Bu gün radikal düdüşərgənin liderləri, xüsusilə də, sosial şəbəkədə zombiləşmiş qaragüruhçu dəstə başçısı sayılan AXCP sədri Əli Kərimli yenə də seçkiərəfəsi hər kəsi ittiham etməyə başlayıb. Özünü ictimai rəyə demokratik düşərgənin əsas güc mərkəzi kimi sırımağa çalışan bu qaragüruhçu dəstə başçısı hər cür yalan danışmaqdan, iftira atmaqdan bu gün də çəkinmir. Çünki bu xarakterik xüsusiyyət xəmiri satılmaqla yoğrulan Ə.Kərimlinin gerçək simasıdır. Bu ləkəli keçmişi təmizləmək və yaddaşlardan silmək mümkünsüzdür.

### Gizlinlər açılır...satqın, fırıldaqçı, dələduz və oğru Əli Kərimli

Ə.Kərnimlinin satqın və dələduzluğu ilə bağlı AXCP sədrinin cangüdəni Kərim Mehdiyev bildirib ki, o, bir nömrəli dələduzdur: "Bu gün Ə.Kərimlinin dələduzluğunu anlayan ən yaxın silahdaşları onun ətrafından uzaqlaşmazdılar. Diqqət edin, insanlar ideya uğrunda mübarizə apararaq həbsxanaya düşür, Ə.Kərimli isə vicdan əzabı çəkmədən belə övladlarının təhsili üçün xərclədiyi vəsaitin hesabatını xalqa verir".

K.Mehdiyev onu da vurğulayıb ki, Ə.Kərimlinin devizi - "düşərgədə hamı oğurlayır, mən də oğurlayıram"dır: "Bir faktı xatırlatmaq istərdim ki, Ə.Kərimli Avropa Məhkəməsindən 46 min avro əldə etdi. Ancaq bu qədər imkanı olan Ə.Kərimli maddi kömək üçün müraciət edən onlarla cəbhəçini "pul yoxdur" deyərək, əliboş yola salmağından utanmadı. İndi də etiraf edir ki, heç demə pul varıymış, amma əqidə yoldaşlarım üçün deyilmiş. Çünki həmin imkansızlar Ə.Kərimlidən daha mənəviyyatlı və dürüstdür. Bir də cəbhəçilərin pullarını oğurlamaq Ə.Kərimliyə xas olan bir ənənədir. Zaman keçdikcə Əli bəy dəyişməyib, elə həmin dələduz və fırıldaqçı olaraq qalıb, dəyişən ətrafındakı insanlar olub".

Göründüyü kimi, belə faktlar daha çox üzə çıxacaq və bu reallığın və həqiqətin tam çılpaqlıqla deyilməsi Ə.Kərimlini həddən ziyadə qıcıqlandıra bilər. Bu, anlaşılandır. Amma bu qıcıqlanmalarının hiss olunmamasından ötrü siyasi həyasızlıq nümayiş etdirib, erməni lobbisinin maliyyəsi hesabına anti-Azərbaycan dairələrinin yazdıqlarını ictimailəşdirmək Ə.Kərimliyə heç bir səmərə verməyəcək. Çünki o öz natəmiz iddialarında qaldıqca, özü barədə üzə çıxan danılmaz faktlar ictimai rəyin diqqətinə çatacaq. Görünür, özünü "əvəzolunmaz müxalifətin ana lideri" hesab edən Ə.Kərimli son 24-25 ildə hələ də siyasətin nə olduğunu öyrənməyib.

***R.HÜSEYNOVA***

# Bakı metrosu qış qrafikinə keçir

Yay mövsümünün başa çatması, xüsusən yeni tədris ilinin başlanması ilə əlaqədar "Bakı Metropoliteni" QSC artan sərnişin axını, mövsümün tələbləri nəzərə alınaraq, sərnişindaşıma qabiliyyətini artıraraq qatarlardan səmərəli istifadə etmək, həmçinin sərnişinə xidmət mədəniyyətinin səviyyəsini yüksəltmək məqsədilə qatarların yeni hərəkət cədvəlinin tətbiqinə başlanılacaq. SİA xəbər verir ki, "Bakı Metropoliteni" QSC-nin Mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayevin verdiyi məlumata görə, qurumun sədri Zaur Hüseynovun əmrinə əsasən, payız-qış mövsümünün tələbləri nəzərə alınaraq, sentyabrın 18-dən metropolitendə qatarların hərəkətinin yeniləşmiş qrafiklə tənzimlənməsinə keçiləcək.

"Qeyd edilən qrafikə əsasən, qatarların hərəkəti daha da sıxlaşdırılır. Hərəkət gur saatlarda 30 cüt qatar ölçülərinə uyğun təşkil edilməklə, xətlərdəki qatarların sayı artırılacaq və interval azaldılacaq. Nəticədə, "Həzi Aslanov" - "28 May" sahəsində qatarlar arasında interval gur saatlarda 2 dəqiqəyə endiriləcək. Bu prinsiplə gur saatlarda xətlər üzrə hərəkətin bir-birindən ayrı təşkil edildiyi "28 May" - "Dərnəgül" və "28 May" - "İçərişəhər" sahələrində qatarlar arasında interval iki dəfə çox, yəni 4 dəqiqə olacaq. Bu müddətdə yalnız "Bakmil" stansiyasından qatarlar xəttə daxil olduğu zaman interval "Həzi Aslanov" - "Ulduz" sahəsində fərqli ola bilər. Sərnişinlərin nəzərinə çatdırırıq ki, "Həzi Aslanov" - "28 May" sahəsində, sərnişin axınının tələbləri əsas götürülməklə, qeyri-gur saatlarda hərəkət intervalı 2,5 dəqiqə, sərnişinlərin əsaslı şəkildə azaldığı müşahidə olunan axşam saatlarından gecəyə doğru 3 dəqiqə və daha çox olur. Onu da əlavə edək ki, şənbə və bazar, eləcə də bayram günlərində fərqli hərəkət qrafiki tətbiq olunur", - deyə N.Paşayev vurğulayıb. Şöbə rəisinin sözlərinə görə, yeni qrafik 2018-ci ilin yayına qədər tətbiq ediləcək.

# Böyük Britaniyada 10 funt dəyərində plastik banknot dövriyyəyə buraxılacaq

Sentyabrın 14-də Böyük Britaniyada 10 funt dəyərində plastik banknot dövriyyəyə buraxılacaq. AZƏRTAC "psm7.com"a istinadla xəbər verir ki, yeni banknotların xidmət müddəti 5 ildir. Plastik banknotların dövriyyədə olma müddəti kağız pullardan bir neçə dəfə artıqdır. Plastik pulu zədələnmədən qoruyur, suya və palçığa qarşı daha davamlıdır. Pulun üzərində ingilis ədəbiyyatının klassiklərindən olan Ceyn Ostin təsvir edilib. Qeyd edək ki, bir il sonra Birləşmiş Krallıqda daha bir plastik banknot dövriyyəyə buraxılacaq. Böyük Britaniya yeni pulların üstünlüklərindən istifadə edən birinci ölkə deyil. İlk plastik pul hələ 29 il bundan əvvəl yaranıb. Hazırda 50 ölkədə plastik pul dövriyyədədir.

# Leyla Yunus həyasızlığı

## O, şimali koreyalı olsaydı, Cənubi Koreyaya işləyərdi



***Doğru deyiblər ki, kimsə görmək istəməyəndən kor, eşitmək istəməyəndən kar ola bilməz. "Sülh və Demokratiya İnstitutu"nun direktoru Leyla Yunus və əri Arif Yunus bütün ömürləri boyu Azərbaycanın uğurlarına kar-kor olaraq qərəzli fəaliyyətl göstəriblər. Sözsüz ki, onların ölkəmizə və xalqımıza qarşı bu qədər nifrətinin kökündə nəyin gizləndiyini də anlamaq çətindir. Çünki bu ölkənin çörəyini yeyən, havasını udan Leyla və Arif Yunus kimiləri alternativ düşüncənin olduqca ağır çəkili nümayəndələrindən biri kimi təqdim etməyə çalışanlar, yaxşı olar ki, özləri haqqında yaratdıqları miflərdən və əfsanələrdən ayrılıb, infantil zehniyyətdən azad olsunlar. Belə zehniyyətin daşıyıcıları üçün isə hamılıqla qəbul olunmuş normaların tətbiqi zəruri şərt kimi qoyulmalıdır.***

### Leyla Yunus riyakarlığı

Məlum olduğu kimi, qrantların oğurlanmasında və vergidən yayınmaqda ittiham edilən, Azərbaycan əleyhinə fəaliyyət göstərən ermənipərəst təşkilatlar qarşısında QHT rəhbəri kimi fikir formalaşdıran zatı qırıq Leyla Yunus və əri Arif Yunus qrantların oğurlanmasında və vergidən yayınmaqda ittiham edilib və 8 il 6 ay müddətinə həbs olunublar. Lakin sonradan Apellyasiya Məhkəməsi onun cəzasını yüngülləşdirərək, şərti həbslə əvəz edib. Azad olunduqdan sonra isə "SDİ" rəhbəri əri ilə birgə Azərbaycanı tərk edərək Avropaya köçüb və yenə də öz çirkin əməllərini davam etdirməkdədir.

Lakin Leyla Yunus kimilər bilməlidirlər ki, güclü, çoxlarının hesablaşdığı, qanunların aliliyinə söykənən, demokratik Azərbaycan mövcuddur. Azərbaycanı sevənlər bu Vətəni, onun Prezidentini bu cəhətlərinə görə sevir və qürur duyurlar. Qərb dəyərləri, insan haqları, demokratiya barədə usanmadan qəzəl oxuyan Leyla Yunus və həmfikirləri, görəsən, Əfqanıstanda, İraqda insan ağlını donduran vəhşiliklər haqqında heç nə eşitməyiblərmi? Axı Azərbaycanda insanlığa sığmayan belə faktlar bu ölkəyə çox da rəğbət olmayan beynəlxalq təşkilatların heç birinin hesabatında əks olunmayıb. Çünki Leyla-Arif Yunuslar və həmfikirləri qəbul etməkdə zorlanırlar ki, Azərbaycan əhalisinin mütləq əksəriyyətinin dövlətə sədaqətləri hakimiyyətin verdiyi siyasi mədəniyyətin ən önəmli və bəlkə də yeganə şərtinə vicdanlı cavab reaksiyasıdır.

### Yeni dəlillər - azadlıqda yaramaza çevrilən Leyla Yunus

Bu yaxınlarda Leyla Yunusun həbsdə olduğu müddətdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya əfv olunması üçün yazdığı məktubunun vəkil Elçin Qənbərov tərəfindən ictimailəşdirilməsi, daha dəqiq desək, "Leyla Yunusun dəbdəbəsi və yoxsulluğu" adlı kitabında onun real kimliyi bir daha ifşa olunub. Misal üçün, "SDİ" rəhbəri vaxtilə bu sözləri deyib: "Hakimiyyət məni həbsxana yaramazına çevirmək istəyir. Mən yaramaz olmağa hazıram. Lakin azadlıqdakı yaramaz". Göründüyü kimi, L.Yunus azadlığa çıxdıqdan sonra yalnız bir vədinə əməl edib - azadlıqda yaramaza çevrilib...

Və yaxud da, özünü azadlıqdakı yaramaz kimi aparan, "xəstə", əldən düşmüş qoca qadın" və s. kimi göstərən L.Yunus İlk Avropa Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsinə qarşı Təşkilat Komitəsinin rəhbərliyinə ünvanladığı məktubla bağlı fikirləri haqda "erməni qırğınlarını və milli mənsubiyyətə görə qətlləri pisləyən "Daş yuxular" romanı yandırılan Əkrəm Əylisliyə dəstəkdən və əl-ələ tutan Azərbaycan və Ermənistan qadınları..."ndan danışarkən, görəsən, hansı əxlaqla və haqla özünü Azərbaycan xalqının fövqündə görür. Bütün Azərbaycan xalqının lənətlədiyi bir əsərə qahmar çıxmağı, "azərbaycanlılar alman faşistlərindən daha iyrəncdirlər" hayqıran erməni qadınları ilə əl-ələ tutmaqdan çəkinmirsə, bunu necə özünə rəva görür? Bir də axı onun kimi "mən Azərbaycan dilini ancaq pis sözlər demək üçün istifadə edirəm"- deyən, yüksək intellekti, ziyalılığı ilə öyünən bir adamdan bundan artıq nə gözləmək olar?

### Donor qrantları həyata keçirən Leyla Yunus

Daha bir məqam. Leyla Yunus donor qrantlarını həyata keçirib, özü də nə az, nə də çox -düz 20 il! 20 il boyunca bu fərd "hüquq müdafiəçisi" adı altında yalnız və yalnız Azərbaycan dövlətçiliyinin əleyhinə fəaliyyət göstərən xarici təşkilatların buraxdığı sərmayələrlə dolanıb. Məhz buna görə də, bu satqın ermənipərəst simaları olan Leyla və Arif Yunuslar layiq olduqları cəzanı aldılar.

Göründüyü kimi, bu faktlar və dəlillər ortadadır və bu gün Leyla Yunusa ən çox qahmar çıxan AXCP sədri Əli Kərimli və digərlərinin hər birinin arxasında erməni lobbisi dayanıb. Eyni zamanda, onu da vurğulamaq lahımdır ki, Leyla və Arif Yunusların istər həbs olunduğu dövrlərdə, istərsə də məhkəmələri zamanı, erməni mətbuatı sanki öz vətəndaşının müdafiəsinə qalxırmış kimi, çığır-bağır salmaqla məşğul olub. "Azadlıq" radiosunun Yerevan bürosu - "Azatutyun", "Armenia today", "tert.am" və s. saytları, Ermənistanın, demək olar ki, bütün yazılı mətbu orqanları "SDİ" direktorunu Ermənistanın milli qəhrəmanına çevirmişdi. Üstəlik, bir sıra Avropa təşkilatlarının rəsmiləri də erməni mətbuatı qədər Azərbaycan dövlətinə qarşı çıxış edən Leyla və Arif Yunusları müdafiə edən bəyanatlar səsləndirirdilər. Məsələn, Avropa Şurasının baş katibi Turbern Yaqland, AŞ PA-nın prezidenti Ann Brasser, Avropa Şurasının insan haqları üzrə komissarı Nils Muyjnieks, eləcə də, ATƏT-in parlament assambleyasının insan haqları və demokratiya üzrə rəsmisi İzabel Santosun dərhal haray-şivən qaldırmaları, bir daha sübut edir ki, daim Azərbaycana qarşı ikili standartlardan yanaşan bu fərdlər və onların təmsil olunduqları təşkilatları danışdıran, əslində, insan haqlarını tapdayan, qeyri-demokratik bəyanatlar verməyə məcbur edən də erməni lobbisinin pullarıdır. Bu gün kimsə deyə bilməz ki, onların heç biri Azərbaycan dövləti əleyhinə çıxış etmələri üçün erməni havadarlarından rüşvət alıb, korrupsiyaya bulaşmayıblar, o ki qala ermənipərəst Leyla və Arif Yunuslara görə!!!

Təşkilatla bağlı maraqlı olan digər məsələ - onun Ermənistanla humanitar sahədə əməkdaşlıq etdiyi halda, Azərbaycanda insan haqları ilə maraqlanmasıdır. Qərəzli seçimdir. Bu işdə "People in Need"-ə erməni lobbisi və radikal Azərbaycan müxalifətinin bəzi nümayəndələri kömək edirlər. Erməni lobbisi təşkilata lazım olan maddi vəsaiti təşkil etdiyi halda, radikallar məlumat bazası rolunu oynayırlar. Bu yerdə həmin təşkilata sual verərlər ki, "Sən Leyla Yunusu, yaxud Arif Yunusu tanıyırsanmı?" Deyir, tanımırsan. Əgər Leyla Yunus şimali koreyalı olsaydı, Cənubi koreyaya işləyərdi və həbs edilərdi. Lakin bu təşkilatın Azərbaycan əleyhinə hazırladığı təxribat çox da hay-küy yaratmayacaqdı, əgər daxildəki ermənipərəstlər onu dəstəkləməsəydilər. Bir də, milli maraqlara qarşı çıxan ünsürlərin həbsindən məqsəd üçün istifadə edilməməlidir. Bu, tolerantlıq deyil, xəyanətdir. Azərbaycanı ittiham edənlər bilməlidirlər ki, əslində, Yunuslar ailəsi, bilavasitə bu ölkənin düşməni olan digər ölkənin kəşfiyyat orqanları tərəfindən təlimatlandırılmış casuslardırlar.

Beləliklə, Azərbaycanı Leyla və Arif Yunuslar kimi Vətən xaininə görə "asıb-kəsən" Avropa təşkilatlarının korrupsiyalaşmış başbilənləri öz ölkələrində leyla yunusların olmasına razıdırlarmı?!

Beləliklə, bu gün Leyla və Arif yunuslar öz anti-milli və cinayətkar fəaliyyətinin acı nəticələrini yaşayır və tam qanunauyğun şəkildə cəzalandırılıblar.

**Rəfiqə HÜSEYNOVA**

# Elşən Musayev: "Əbəs yerə dağıdıcı müxalifətə "qaragüruh" adını qoymamışıq ki?"

Müsahibimiz Demokratik-Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir



***- Elşən müəllim, Milli Məclisin payız sessiyasında "Siyasi partiyalar haqqında qanun"a əlavə və dəyişikliklər nəzərdə tutulur. Yeni dəyişikliklərə əsasən, maliyyə hesabatı verməyən partiyaların qeydiyyat məsələsinə yenidən baxılacaq. Bu qanunla bağlı nə deyə bilərsiniz?***

- Haqqında danışdığınız "Siyasi partiyalar haqqında qanun"a əlavə və dəyişikliklərin edilməsi zərurəti, əslində, çoxdan yaranıb. Çünki dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da siyasətlə məşğul olan partiyaların şəffaflığı ön plana çəkilməlidir. Ələlxüsus da, maliyyə hesabatı kontekstində. Yəni tam normal bir gedişat və qaydadır. Milli Məclisdə müzakirəyə çıxarılanda da təkliflərimizi və müsbət rəyimizi verəcəyik.

***- Bu, faktdır ki, AXCP və Müsavat kimi partiyalar maliyyə hesabatı verməkdən imtina edirlər. Qanuna dəyişiklik edildikdən sonra bu partiyaların qeydiyyatını ləğv etmək nə dərəcədə mümkün olacaq?***

- Bu partiyalara qarşı həmişə humanizm və güzəşt olub. Ulu Öndər Heydər Əliyevin də, Prezident İlham Əliyevin də hakimiyyəti dövründə. Sadəcə, radikal müxalifət bunu anlamayıb. Ayrıca, burada söhbət, illah ki, qeydiyyat məsələsindən və ya onun ləğvindən getmir. Qeydiyyatın ləğvinə qalsa, bunun üçün müxalif funksionerlər həmişə bəhanə veriblər. Sadəcə, dediyim kimi, Azərbaycan rəhbərliyi humanist rəhbərlikdir və güzəştə getməyi bacarır. Gələcəkdə isə nə olacaq, onu deyə bilmərəm. Tək bildiyim də odur ki, bütün siyasi partiyalar öz maliyyə hesabatlarını şəffaf formada aidiyyəti qurumlara təqdim etməlidirlər. Etmirlərsə, demək, ortalıqda şübhəli məqamlar var.

***-Sizcə, nəyə görə müxalifət qanunlara riayət etmək və sivil mübarizə metodlarından yararlanmaq istəmir?***

- Azərbaycanın radikal müxalifətinin ən nifrət etdiyi şey qanundur, sivil metoddur. Əbəs yerə dağıdıcı müxalifətə "qaragüruh" adını qoymamışıq ki, onlar ancaq səs-küy salmağı, artistliklə ağlamağı, davranmağı, ora-bura saxta danoslar ötürməyi bacarırlar. Vəssalam. Yəni xislətləri budur və bu xislət illər boyu, təməldən formalaşıb. Üstəlik, dəyişməyib.

***- Prezident seçkiləri ərəfəsi dağıdıcı müxalifət partiyalarının bir qədər fəallaşdığı, hətta hədələyici mesaj və ultimativ bəyanatlarla çıxış etdikləri müşahidə olunur. Bu fəallığın mərkəzində dayanan amili nə ilə əlaqələndirmək olar?***

- Guruldayırlar, boş-boş, həmişəki kimi. Fəallıq-filan da yoxdur. Sadəcə, görüntü yaratmaq istəyirlər ki, biz də varıq. Əslində isə, yoxdurlar. Onlar Azərbaycan siyasətində uzun müddətdir yoxdurlar. Bundan sonra da heç zaman olmayacaqlar. Azərbaycanın dağıdıcı müxalifəti tarixin zibilliyinə gömülüb. Düzdür, hərdən həmin zibilliklərdə eşələnib, üfunət yaradırlar. Amma olsun, dözərik. Hər halda, iyrənc qoxuları ən çox özlərinə xoş gəlir. Barı təsəllimiz bu olsun.

**GÜLYANƏ**

# "Peşə təhsili haqqında" qanun layihəsi hazırlanır



Ölkəmizdə peşə təhsilini iqtisadiyyatın hazırkı inkişafına uyğunlaşdırmaq qeyri-neft sektoru üzrə müasir tələblər səviyyəsində kadr hazırlamaqda qarşıya qoyulan əsas hədəflərdəndir. Peşə təhsilinin genişləndirilməsi istiqamətində dövlət tərəfindən atılan addımlar bəhrəsini verməkdədir. Təsadüfi deyil ki, bu il ilk peşə ixtisas təhsili müəssisələrini seçənlərin sayı səkkiz mini ötüb. Bu, ötən illərlə müqayisədə xeyli çoxdur. AZƏRTAC xəbər verir ki, əmək bazarının peşə təhsili üzrə mütəxəssislərə olan tələbi bu istiqamətdə təklifin yüksək səviyyədə olmasını aktual edir. Həmçinin bu sahə üçün hüquqi bazanın yaradılması zərurəti də meydana çıxır. Belə ki, Milli Məclisin elm və təhsil komitəsi artıq "Peşə təhsili haqqında" qanun layihəsi hazırlayır. Layihədə özəl peşə təhsili müəssisələrinin yaradılması da əksini tapıb. Qeyd edək ki, hazırda ölkəmizdə 90-dək dövlət peşə təhsili müəssisəsi fəaliyyət göstərir.

SİYASİ RAKURS

# Onlar niyə Saakaşvili ola bilmirlər?

## Rəsul Quliyev faktoru bu sualın cavabını kifayət qədər verir



Gürcüstanın eks-prezidenti, Odessa vilayətinin sabiq qubernatoru Mixail Saakaşvilinin minlərlə tərəfdarlarının dəstəyi ilə Ukraynaya geri dönməsi, eləcə də, bu qayıdışının ajiotaj şəkli alması istər-istəməz bizlərdə belə sual doğurur ki, o, buna necə nail oldu? Çünki Saakaşvilinin bu addımı Azərbaycanın siyasi arenasında özlərini "ana müxalifət" adlandıran cəbhəçi və müsavatçı, eyni zamanda digər partiya sədrlərinin aşkar qısqanclıqları ilə müşahidə olundu. Diqqət yetirsək, görərik ki, gündəmdə qalmaq üçün dünyada baş verən ən xırda hadisəyə belə münasibət bildirən "liderlər" Ukraynada baş verən mövcud olay barədə danışmağa heç də meyilli görünmürlər. Uzağı bir neçə kəlmə ilə yaxalarını kənara çəkib gizlənirlər. Onlar, hətta qısqanclıq hisslərini də gizlədə bilmirlər. Halbuki Ukraynada baş vermiş sonuncu "Maydan" hadisələri dövründə, məhz həmin bu "liderlər" elə bir haray-həşir salırdılar ki, sanki həmin hadisələrin qısa zamanda Azərbaycanda da baş verəcəyi gözlənilir. Biz hələ İsa Qəmbərin Ukraynaya gedib özünü biabır etməsini demirik...

### Hətta mümkün olmayan utopik vədlər belə, xalqı ona tərəf çevirə bilmədi!

Lakin onların bu istəkləri də digərləri kimi, havadan asılı qaldı və beləcə "inqilab arzuları" havaya buxarlandı. Bəs qısqanclığın səbəbləri nədədir? Bu suala cavab tapmaqdan ötrü, biz yenidən bir neçə il öncələrə, qısa tarixi ekskurs etməliyik.

Misal üçün, eks-spiker Rəsul Quliyev də 2005-ci ildə ətrafında ajiotaj yaratmaq cəhdi ilə ölkəyə dönmək istəyirdi. Məqsəd bu idi ki, həmin il parlament seçkiləri öncəsi, onun elə də çox olmayan tərəfdarları ölkə ərazisində təbliğatını aparır, hətta mümkün olmayan utopik vədlər də verilirdi. Ancaq sonda o, qorxdu və dərk etdi ki, kifayət qədər cinayət əməllərinə yol verdiyinə görə, ölkəyə qayıdar-qayıtmaz qanun qarşısında cavab verməli olacaq. Nəticədə, R.Quliyev ona inananlar qarşısında rüsvay oldu və qorxaq damğası ilə Ukraynaya geri döndü, oradan da ABŞ-a getdi.

### Rəsul Quliyevin cəsarətsizliyi, cürətsizliyi kifayət qədər onların da payına düşdü

Bu da son deyil. Misal üçün, həmin vaxtlar əllərinə düşən bu fürsətdən maksimum yararlanmağa çalışan AXCP sədri Əli Kərimli, Müsavatın o zamankı başqanı İsa Qəmbər, ADP-nin hazırkı sədri Sərdar Cəlaloğlu, ALP-nin sabiq sədri Lalə Şövkət, AXP sədri Pənah Hüseyn və daha kimlər-kimlər də xalqın qarşısında biabır oldular. Çünki onlar da R.Quliyevi qarşılamaq üçün bir araya gəlmişdilər. Beləliklə, R.Quliyevin cəsarətsizliyi, cürətsizliyi kifayət qədər onların da payına düşdü. Halbuki M.Saakaşvili hazırda şəxsiyyətini rəsmi şəkildə təsdiq edən sənədə də malik deyil, onun pasportu belə yoxdur, amma R.Quliyevin vətəndaşlığını təsdiq edən sənəd var idi, yəni hüquqi cəhətdən o, ölkə ərazisinə daxil ola bilərdi, təhlükə isə 100 %-lik həbs idi.

### Belələrinin Saakaşvili ilə müqayisədəki "çəki" fərqləri kiloqramlarla deyil, tonlarla ölçülür

Saakaşvili R.Quliyevdən fərqli olaraq, daha ağır təhlükə qarşısındaydı, o, sənədsiz Polşadan Ukraynaya keçdi və ukraynalı sərhədçilərin ona atəş açmaq hüquqları var idi. Fərq isə bundadır: R.Quliyev həbs olunmaqdan qorxdu, M.Saakaşvili isə ölümü belə gözaltına alaraq sərhədi keçdi!

Bax, bu reallıqlar qarşısında bu gün Azərbaycan hakimiyyətinə əks olaraq danışan, danışanda ağızlarına çullu dovşan yerləşməyən "liderlər" indi susub-dayanıblar. Bilirlər ki, danışsalar, ağızlarından vurulacaqlar.

Bu gün özlərini "idealist", ya da "mübariz" kimi qələmə verənlərin M.Saakaşvili ilə müqayisə edilmələri belə, doğru seçim deyil, əslində. Çünki bunlar düşdükləri istənilən ekstremal hallarda yalnız şəxsi mənafelərini güdməklə məşğul olurlar. Belələrinin Saakaşvili ilə müqayisədəki "çəki" fərqləri kiloqramlarla deyil, tonlarla ölçülür və əlbəttə, onlar gürcü liderdən qat-qat yüngüldürlər. Kimləri isə imitasiya edib təkrarlamaq cəhdləri isə yuxarıda adları çəkilən və çəkilməyən müxalifətçilərin hansı rüsvayçı durumda olduqlarını daha qabarıq fonda sərgiləyir.

**Rövşən NURƏDDİNOĞLU**

# Müxalifət niyə yenilənə bilmir?

Hər kəsə aydın olan məlum fakt ondan ibarətdir ki, Azərbaycanın dağıdıcı ünsürləri ictimai rəydə özlərinə dəstək qazana bilmədiklərindən, ümidlərini xarici qüvvələrə bağlayır və onlarla əməkdaşlıq əlaqələri qururlar. Təbii ki, bu əlaqələr qarşılığından müxalifət xarici himayədarlarından maliyyə yardımları alırlar. Cəmiyyətin birmənalı mövqeyi ondan ibarətdir ki, dağıdıcı müxalifət milli və dövlətçilik maraqlarına qarşı qərəzli mövqe nümayiş etdirir. Bəzən xarici qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanaraq, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa və qarşıdurmalar yaratmağa cəhd göstərirlər. Təbii ki, bu da ictimai rəydə müxalifətə qarşı narazılıqlar yaradır. İnsanların dağıdıcı ünsürlərin əsas ideoloqları olan İsa Qəmbərə, Arif Hacılıya, Əli Kərimliyə və digərlərinə nifrət bəsləmələrinin başlıca səbəbi də, məhz mövcud reallıqla bağlıdır. Bunu müxalifət liderlərinin özləri də dərk edir və başa düşürlər. Ancaq səhvlərindən nəticə çıxarmırlar. Çünki müstəqil deyillər. Digər tərəfdən, siyasətə gəlir mənbəyi kimi baxırlar. Sədrlik kreslolarını tərk etmələri onlar üçün ciddi maddi problemlər yaradar. Yəni xarici fondlar onlara maddi və mənəvi dəstək göstərməkdən imtina edərlər. Bununla da, AXCP sədri Ə.Kərimli uşaqlarının xarici unveristetlərdə illiyi on min manatlarla olan ödənişdən və təmtəraqlı həyat tərzindən məhrum olar, Müsavat başqanı A.Hacılının qardaşları Mustafa və Vaqif Hacıbəylilərin biznes strukturu çökər, "Milli Şura"nın sədri Cəmil Həsənlinin ardıcıl xarakter daşıyan xarici səfərləri sona yetər.

### Arif Hacılının adı yolunu azanlar siyahısına daxil edilib

Müxalifət partiyaları sosial bazadan və ictimai nüfuzdan məhrum olsa da, liderlər iddialı çıxışlardan və açıqlamalarından əl çəkmirlər. Yeri gəldikcə, əksinə, daha ötkəm və iddialı açıqlamalarla çıxış edirlər. A.Hacılının, uğursuzluqla nəticələnən Almaniya səfərindən sonra, bir qədər də aqressivləşdiyi müşahidə olunur. Demək olar ki, hər gün sosial şəbəkələrdə özü və ya qardaşları Vaqif və Mustafa Hacıbəylilər rəqibləri, xüsusilə də, AXCP sədri Ə.Kərimli haqqında ittihamlar irəli sürürlər. Düzdür, Ə.Kərimli haqqlnda irəli sürülən ittihamlar və iddialar özündə reallığı əks etdirsə də, bunun davamlı şəkildə təkrarlanması məsələnin kökündə xüsusi maraqların dayandığını deməyə əsas verir. Söz yox ki, Müsavat başqanının cəbhəçiləri, əsasən də Ə.Kərimlini topa-tüfəngə tutmasının özəl maraqları var. Bu maraqlarda önə çıxmaq, müxalifət düşərgəsində, "ana müxalifət partiyası" olmaq xəstəliyidir. Nəzərə almaq lazımdır ki, növbəti il prezident seçkiləri keçiriləcək və bu seçkilərdə eks-başqan İsa Qəmbər müxalifətin namizədi olmaq iddiasındadır. A.Hacılının missiyası İ.Qəmbərin yolunun üstündə olan maneələri aradan qaldırmaqdır. O demək deyil ki, İ.Qəmbər seçkilərdə namizəd olmaqla hansısa uğura imza atacaq. Bunun yalnız xülya olduğunu A.Hacılı, eləcə də namizəd İ.Qəmbər də dərk edir. Sadəcə, hədəf xarici təşkilatlardan və fondlardan seçkiərəfəsi müxalifətə ayrılacaq maliyyə yardımlarına sahiblənməkdir, özü də şəriksiz. Atalarımızın belə bir məsəli var, "ağanın malı gedir, qulun canı ağrıyır". İndi İ.Qəmbər namizəd olmaq iddiasındadır, A.Hacılı narahatdır. Məsələ burasındadır ki, 2014-cü ilin sentyabrında Müsavatın qurultayı keçirilən zaman A.Hacılı heç də asanlıqla başqanlığa gətirilməmişdir. Yəni İ.Qəmbər "halvadır, əziyyətsiz-filansız buyur ye" deyib, A.Hacılını başqanlığa seçdirməmişdir. Şərt qoyulmuşdur: "sən başqan, mən prezidentliyə namizəd". İ.Qəmbər vədini yerinə yetirib. Şərtlərə əməl edib, indi növbə A.Hacılınındır. A.Hacılı da dəridən-qabıqdan çıxır ki, İ,Qəmbər müxalifətin namizədi olsun və bununla da Müsavatın növbəti qurultayında o, yenidən başqan seçilə bilsin. Amma məsələ burasındadır ki, A.Hacılı Ə.Kərimli problemini həll etməkdə acizdir. Çünki bəzi xarici təşkilatlar AXCP sədrinə qarşı laqeyd deyillər. Onun Azərbaycan dövlətinə qarşı qarayaxma kampaniyasına etinasız qalmırlar. Hətta demək olar ki, arada bir onun fəaliyyətini dəyərləndirir, tulapayı da olsa, pul-para göndərirlər. Təbii ki, bu da A.Hacılı üçün əlavə problemlər deməkdir. Almaniya səfəri zamanı bu problemi aradan qaldırmağa səy göstərsə də, istəyinə nail ola bilməyib. Xarici qüvvələr onların bir yerdə Azərbaycan dövləti və hökuməti əleyhinə iş aparmaları barədə qəti göstəriş verib. Hadisələrin bundan sonrakı xəttinin necə olacağını demək çətin olsa da, görünən odur ki, A.Hacılı xarici ağalarının "Ə.Kərimli ilə bir yerdə olun" göstərişini yerinə yetirmək fikrində deyil. Bunu dünən A.Hacılının sosial şəbəkələr vasitəsi ilə AXCP-nin fəaliyyətini, Ə.Kərimlinin siyasətini tənqid etməsi də təsdiq edir.

**İ.ƏLİYEV**

# Bankomatdan külli miqdarda pul oğurlanmasının qarşısı alınıb



Sumqayıtda bankomatlardan birindən külli miqdarda pulun oğurlanmasının qarşısı alınıb. DİN-in mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Sumqayıt Şəhər Polis İdarəsi (ŞPİ) əməkdaşları tərəfindən vaxtında həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Corat qəsəbəsi ərazisində quraşdırılan bankomatlardan birindən külli miqdarda maddi vəsaitin oğurlanmasının qarşısı alınıb. Belə ki, qeyd edilən ünvanda quraşdırılmış bankomatın qapısını sındırmaq yolu ilə oğurluğa cəhd göstərməkdə şübhəli bilinən şəhər sakinləri Elnur Tağıyev, İlqar Səfərov və onun qardaşı Tural Sumqayıt ŞPİ-nin əməkdaşları tərəfindən saxlanılıb.

Qeyd edək ki, saxlanılan şəxslər hadisədən bir neçə gün əvvəl həmin bankomatın yanına gələrək müşahidə aparıblar. Hadisə günü isə onlar özləri ilə lazımı avadanlıqlar götürərək bankomatın içində olan seyfi qıraraq oğurluq etməyə cəhd göstəriblər. Dəstə üzvləri saxlanılan zaman onların yaşadıqları ünvanlardan qeyd edilən cinayət hadisəsini törədən zaman istifadə etdikləri dəmir alətlər maddi sübut kimi aşkar olunaraq götürülüb. Qeyd edilən faktlarla bağlı Sumqayıt ŞPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, araşdırma aparılır.

# Beyləqanda yük maşını aşıb

Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, Bəhrəmtəpə-Horadiz yolunun Beyləqan rayonu ərazisindən keçən hissəsində "MAZ" markalı yük avtomobili yol qəzası nəticəsində yol kənarına aşıb. SİA-nın nazirliyin saytına istinadən verdiyi xəbərə görə, dərhal Dövlət Yanğından Mühafizə Xidmətinin yanğınsöndürən-xilasediciləri hadisə yerinə cəlb olunaraq deformasiyaya uğramış avtomobildə sıxılmış vəziyyətdə qalmış sürücünü çıxarıblar. O, aidiyyəti üzrə təhvil verilib.

# Cəmaləddin Əfqani dini fəlsəfi mədəniyyət haqqında

***Türk-müsəlman dünyasının böyük oğlu Şeyx Cəmaləddin Əfqani müxtəlif müsəlman ölkələrinin dövlət başçıları ilə Şərqin gələcəyi barədə fikir mübadiləsi aparmışdır. Akademik Nizami Cəfərov C.Əfqani haqqında yazır: "Əsasən, panislamist kimi tanınan, çox hallarda panislamizmin banisi sayılan Cəmaləddin Əfqaninin, eyni zamanda "milli vəhdət fəlsəfəsi"nin müəllifi kimi məşhurlaşması nədən irəli gəlirdi" sualına cavab vermək o qədər də çətin deyil. Məlum olduğu kimi, yeni dövrdə (XVII əsrdən sonra) müsəlman Şərqində aparıcı ideologiya müsəlmançılıq, yaxud ümmətçilik idi, digər ideologiyalar həmin ideologiyadan çıxırdı, istər-istəməz onun "semantika"sını daşıyırdı. Cəmaləddin Əfqaninin böyüklüyü onda oldu ki, belə bir dövrdə "milli vəhdət fəlsəfəsi"ni çox cəsarətlə irəli sürüb hər bir müsəlmanın, eyni zamanda bir türk, fars, ərəb, yaxud hind olduğunu dedi.***

Böyük mütəfəkkir "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" adlı fəlsəfi traktatında göstərirdi ki, hər bir insan bir qəbilə vəhdəti içində öz varlığını tapır. Bu ictimai varlığın və kollektivin həyat ruhu mütləq yaxınlıqdır. Bu mütləq yaxınlıq müxtəlif insanların toplusundan ibarət olan qəbiləni (tayfanı) vadar edir ki, hamı bir nəfər kimi öz mənafeyini təmin etmək üçün bütün bacarığından istifadə etsin, ümumi təhlükəni hamı ilə birlikdə əl-ələ verərək aradan götürsün, digər qəbilələrlə birlikdə yoldaşlıq etsin, həmişə öz tayfasına xoş güzəran və müvəffəqiyyət axtarsın. Sonra bu vəhdət qəbilə birliyinə, o da vahid millətə gətirib çıxarır.

Göründüyü kimi, burada xalqı və milləti təşkil edən faktorlar içərisində nə din, nə dil faktorundan bəhs edilir, daha çox ictimai-mənəvi birlikdən söhbət gedir. Qərblər".

Orta əsrlərin sonu, yeni dövrün əvvəllərindən etibarən müsəlman Şərqində dini ideologiya Qərblə-Qərb təfəkkür tərzi ilə üzüzə dayanmalı oldu və həmin ideologiyadan tələb olundu ki, Qərbin nə üçün inkişaf edib Şərqi əsarət altına aldığı, Şərqin isə get-gedə daha çox əsarət altına düşdüyünü izah etsin... İslam ideoloqları həmin tələbata cavab vermək imkanına malik deyildilər. Ona görə də, belə bir təsəvvür (mif!) yaratmağa çalışırdılar ki, Qərbin Şərqə qarşı istifadə etdiyi "təcavüz" metodları qeyri-etik metodlardır. Qərb, ümumiyyətlə əxlaqsızlıq mənbəyidir... Cəmaləddin Əfqani bu cür asan yol (mif yaratmaq yolu!) tutmaq istəmədi. O qəbul etdi ki, Şərq xalqları Qərb xalqlarından geri qalmışdır və bu, iddialı Şərqin filosofu üçün böyük qələbə idi...".

fəkkür mühitləri ilə hesablaşmalı olmuşdur...

Cəmaləddin Əfqani mühafizəkar islam ruhanilərindən, "filosoflarından" fərqli olaraq, müsəlman Şərqinin (ümumən Şərqin) Qərb elmi, mədəniyyəti, həyat tərzi qarşısına cəsarətlə çıxmasını tələb edirdi. Şərq dövlətlərinin despot hökmdarına məsləhət görürdü ki, dövlətin idarə olunmasında demokratiyaya şərait yaratsınlar, xalqın təbii tarixi istedadını boğmasınlar... Böyük mütəfəkkirin ömrünün sonlarında İstanbulun Babi-ali zindanından iranlı həmməsləklərinə yazdığı son məktubunda göstərdiyi kimi, onun sözünə baxan olmadı: "Əkdiklərimi biçəmmədim, bəslədiyim arzulara çatammadım. Qəddarlıq qılıncı qoymadı ki, Şərq xalqlarının oyanmasını görəm. Cəhalətin mənfur əli imkan vermədi ki, xalqların azadlıq deyən səsini eşidə bu səviyyəli fəlsəfi mülahizələr XVIII əsrdən söylənməyə başlanılmışdır (İ.Q.Herder, İ.Kant, G.V.Hegel). Şərq filosofu üçünsə həmin mülahizələr XIX əsrdə də kifayət qədər böyük düşüncə orijinallığı və şəxsi cəsarət tələb edirdi. Həm Şərq, həm də Qərb cəmiyyətinin əsaslarına yaxşı bələd olan Cəmaləddin Əfqani Şərqin Qərbdən geri qalmasının səbəbini birincisinin fəlsəfi təfəkkürdən geri qalmasında görür və deyir: "Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər. Osmanlı dövləti, eləcə də, Misir 60 ildir ki, elmlərin təlimi üçün məktəblər açmışdır və hələ də ondan bir xeyir götürməmişdir..." Cəmaləddin Əfqaninin fikrincə, fəlsəfə (!) olmayan yerdə heç nə yoxdur: "fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək..." Məsələn, "islamın ilk dövrlərində müsəlmanlar heç bir elmə malik deyildilər. Ancaq islam dəyanəti ucundan onlarda əmələ gələn fəlsəfi ruh vasitəsilə dünya və insan haqqında mübahisələrə başladılar".

C.Əfqani Qərbin inkişafında xritstianlığın mühüm rol oynadığını göstərir, islamın isə ilk dövrlərdə uğurlar qazandığı halda, sonralar tənəzzülə uğradığını, antifərdi məzmun kəsb etdiyini diqqətə çatdırır. Elmə və mədəniyyətə ən yaxın və doğma olmanın dil olduğunu göstərir. N.Cəfərovun fikrincə, ümumiyyətlə, hər şeydən əvvəl, iudaizm, buddizm və xristianlıqdan fərqli olaraq islam dünyanın daha ağıllı dövründə, yəni zəkanın (fəlsəfənin) ibtidai inamları, mifologiyanı sıxışdırdığı bir dövrdə formalaşdığına görə, əvvəlki dünya dinlərindən daha çox fəlsəfi olmuşdur; ikincisi, islam həm təşəkkül-formalaşma, həm də yayılma-mənimsənilmə (ictimai şüura yiyələnmə) prosesində əvvəlki dinlərin, dünyagörüşlərin proqressiv təsirini öz üzərində hiss etdiyi üçün dünyaya həmin dinlərdən, dünyagörüşlərdən daha açıq olmuş, fikir plüralizminə kifayət qədər geniş imkan vermişdir; üçüncüsü, müxtəlif etnik mənşəyə, etnopsixologiya və etnik dünyagörüşlərinə mənsub xalqlar (ərəblər, farslar, türklər və b.) tərəfindən bir neçə əsr ərzində (və islama qədərki zəngin düşüncə mədəniyyəti əsasında) qəbul edilən islam istər-istəməz çevik tədəm... Mənim faydalı təkliflərimdən heç biri Şərq müstəbidlərinin qulağına girmədi. Bununla belə, Cəmaləddin Əfqani Şərq xalqlarının öz istedadları etibarilə Qərb xalqlarından heç də geri qalmadıqlarına əmin idi. Şərq xalqları içərisində də ən çox İran (o cümlədən, Azərbaycan - N.C.) xalqına inanırdı: "Mən, həqiqətən, inanıram ki, İran xalqı fövqəladə təbii istedad və zövqə malikdir. İran xalqı başqa Asiya xalqlarından daha çox tərəqqi və inkişafa layiqdir. İran millətinin parlaq ədəbi və fəlsəfi tarixi onları başqa müsəlman xalqlarından fərqləndirir. İranlıların xeyirxah və insanpərvərlik məfkurələri başqa xalqlardan daha güclüdür". Hacı Məstan Dağıstaniyə məktubunda böyük mütəfəkkir yazır: "İranlıların siyasətdə və söz sənətində məharətləri vardır, lakin onlar alimi-bəməldilər. Əgər söz-söhbətə sərf etdikləri qüvvənin yüzdə birini işə sərf etsəydilər, İran indi tərəqqi, qüvvət, sərvət və əzəmət baxımından böyük dövlətlər cərgəsində dayanmışdı".

C.Əfqani həm də müsəlman ölkəsinin tənəzzülü səbəblərini də göstərir. Böyük mütəfəkkir əmindir ki, "müsəlman aləminin tənəzzülü, pozuqluğu əvvəlcə din başçılarında, üləmalarda əmələ gəlmiş, sonra ümmətə sirayət etmişdir". Ona görə də, təbii ki, müsəlman Şərqində təlim-tərbiyə işini yuxarıdan başlamaq lazım gəlirdi, alim-üləmaları fəlsəfi təfəkkürdən məhrum bir məmləkətin ümmətini tərbiyə etmək mümkün deyildi... Çünki "insanda insanlıq oyadan, insan ləyaqətini bəyan edən, insanı doğru yola istiqamətləndirən fəlsəfədir. Mənəvi tənəzzülə uğrayan millətin, hər şeydən əvvəl, fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan çıxır". Həmin mülahizəsində Cəmaləddin Əfqani, faktiki olaraq, "əxlaqın dindən asılı olmadığını, mənəviyyat qanunlarının dini ehkamlardan törəmədiyini" söyləyən İ.Kantın əxlaq fəlsəfəsinə yaxınlaşırdı və ümumiyyətlə, bir sıra müqayisələr Şərq filosofunun özündən bir əsr əvvəl yaşamış Qərb filosofundan ya bilavasitə, ya da dolayısı ilə öyrəndiyi qənaətinə gəlməyə hər cür əsas verir. Cəmaləddin Əfqaninin müsəlman Şərqini tənəzzüldən xilas etmək uğrunda apardığı ideya mübarizəsi XIX əsrin sonu, XX əsrin əvvəllərində yalnız davam etdirilmədi, həm də daha da genişləndi və əsası Cəmaləddin Əfqani tərəfindən qoyulmuş ideyalar XX əsrin əvvəllərinin (yeni tarixi şəraitin) mütəfəkkirləri tərəfindən aşağıdakı şəkildə ümumiləşdirildi: milliləşməli, islamlaşmalı, müasirləşməli... Şərqi tənəzzüldən xilas etməyin bu məşhur formulu gərgin fəlsəfi-ideoloji axtarışlar prosesində müəyyənləşmişdi ki, həmin prosesin mənbəyində müsəlman Şərqinin böyük mütəfəkkiri Cəmaləddin Əfqaninin, sözün geniş mənasında, inqilabi təfəkkürünün dayandığını söyləmək üçün, elə bilirik ki, hər cür əsas mövcuddur. Qeyd etmək lazımdır ki, Azərbaycanda, Türkiyədə, ərəb ölkələrində və xüsusilə, İranda XIX əsrin sonu, XX əsrin əvvəllərində, hətta sonralar da, bütün milli hərəkatların ideoloji əsasında birinci növbədə, məhz Cəmaləddin Əfqaninin fəlsəfəsi dayanırdı.

Azərbaycanın, ümumən türk-müsəlman dünyasının böyük ideoloqları İsmayıl bəy Qasprалı, Ziya Göyalp, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə üçün Cəmaləddin Əfqani ideyaları böyük bir məktəb olmuşdur.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

**Son səhifə** **14 sentyabr**

## 3D-printerdə sümük və orqanların çap edilməsi proqramı hazırlanır



Tomskda bir qrup Rusiya alimi bioprintinq deyilən 3D-printerdə sümük və orqanların çap edilməsi proqramı üzərində çalışır və onu test edir. "Novosti sibirskoy nauki" saytı xəbər verir ki, layihənin ayrı-ayrı sahələrində gözəl nəticələr əldə edilib. Artıq Rusiyanın aparıcı klinikaları, elmi tədqiqat institutları və idarələri alimlərin bu araşdırmalarını dəstəkləməyə razı olublar. 3D-printerdə sümük və orqanların çap edilməsi texnologiyası "Gələcəyin təbabəti" texnoloji platforması üçün Tomsk Dövlət Universitetinin və Rusiya Elmlər Akademiyasının Sibir bölməsinin Möhkəmlik Fizikası və Materialşünaslıq İnstitutunun bazasında işlənir. Elmi dairələrin məlumatına görə, yeni texnologiya üzərində iş 2018-ci ilin əvvəlində başa çatmalıdır.

## Virtual reallıq xarici dil öyrənməyə kömək göstərəcək

"ATi Studios" şirkəti "Google Daydream" platforması üçün səsi tanıya bilən və xarici dil öyrənməyə kömək edəcək "MondlyVR" proqramını hazırlayıb.




AZƏRTAC "popmech.ru" saytına istinadla xəbər verir ki, "MondlyVR" xarici dil öyrənənlər üçün virtual reallığa yüklənməyə və burada müxtəlif personajlarla danışmağa imkan verəcək. İstehsalçılar proqramın ən populyar dillərdən (ingilis, yapon, fransız, ispan və s.) başlayaraq əsas etibarilə yalnız dil daşıyıcıları və linqvistika sahəsinin mütəxəssisləri tərəfindən öyrənilən dillərədək (fin, macar) 30 dili dəstəkləyəcəyini bildiriblər.

Şirkətin baş icraçı direktoru Aleks İlieskunun sözlərinə görə, xarici dil öyrənməyin ən yaxşı üsulu həyati ssenarilər və söhbətləri canlandıran virtual reallığa yüklənməkdir. Yeni dil öyrənərkən ünsiyyət zamanı insanlara qorxu və təcrübənin olmaması maneə yaradır. "MondlyVR" xarici dil öyrənənlərə real ünsiyyət vəziyyətlərində bu baryerləri aşmağa kömək edir. Həmçinin qeyd edilir ki, ənənəvi dilöyrənmədə altı ayadək vaxt tələb olunduğu halda, "MondlyVR" proqramı çərçivəsində ilk gündən öyrədilir. Proqramın işləməsi üçün virtual reallıq dəbilqəsini taxmaq tələb olunur.

## İnsanın dəri hüceyrələri texnika vasitəsilə motor neyronlara çevrilib



ABŞ-ın Vaşinqton Universitetinin alimləri insanın dəri hüceyrələrini kök hüceyrə vəziyyətinə gətirmədən birbaşa motor neyronlara çevirə biliblər. "Cell Stem Cell" dərgisi xəbər verir ki, tədqiqatçılar 20-60 yaş arası sağlam insanların dəri hüceyrələrini texnika vasitəsilə kök hüceyrə halına döndürmədən birbaşa motor neyronlara çeviriblər. Elm adamları texnika sayəsində insanın sinir sisteminə aid motor neyronların laboratoriya şəraitində araşdırılmasının mümkün ola biləcəyini qeyd ediblər. Alimlər texnikanın yan amiotrofik skleroz kimi motor neyron xəstəlikləri haqqında daha ətraflı məlumat verməyə imkan yaradacağına inanırlar.

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika müəllimliyinin II kurs tələbəsi Bağırova Nuranə Eldar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## "Qarabağ" komandası UEFA Çempionlar Liqasında ilk oyununu keçirib



Sentyabrın 12-də UEFA Çempionlar Liqasının 2017-2018-ci il mövsümünün qrup mərhələsinə start verilib. AZƏRTAC xəbər verir ki, qrup mərhələsinin "C" qrupunda yer alan Ağdamın "Qarabağ" komandası qitənin ən nüfuzlu klub turnirində keçirdiyi ilk oyunda Londonda "Çelsi" klubunun qonağı olub. Oyun "Çelsi" komandasının 6:0 hesablı qələbəsi ilə başa çatıb. "Stamford Bridc" stadionunda keçirilən matçı yunanıstanlı Tasos Sidiropoulosun başçılıq etdiyi hakimlər briqadası idarə edib. Oyuna sürətli hücumlarla başlayan ev sahibləri ilk dəqiqələrdən "Qarabağ"ın qapısı qarşısında təhlükəli vəziyyətlər yaradıblar. Ardıcıl hücumlar nəticəsində "Çelsi" erkən qolla oyunda hesabı açıb. Matçın 5-ci dəqiqəsində Pedro Rodrigez dəqiq zərbə ilə komandasını hesabda irəli çıxarıb - 0:1. Matçın 15-ci dəqiqəsində Rəşad Sadıqovun yerinə yetirdiyi cərimə zərbəsindən sonra top qapının üstündən keçib. Matçın 30-cu dəqiqəsində "Qarabağ"ı əks-hücumda "yaxalayan" ev sahibləri hesab arasındakı fərqi artırıblar. "Qarabağ" komandasının sol cinahından təşkil olunan sürətli hücumda İbrahim Şehiçin irəli çıxdığını görən Zappakosta uzaq məsafədən vurduğu dəqiq zərbə ilə hesab arasındakı fərqi iki topa çatdırıb - 0:2. Görüşün birinci hissəsi "Çelsi"nin 2:0 hesablı üstünlüyü ilə başa çatıb.

Matçın ikinci hissəsinə də sürətli hücumlarla başlayan London təmsilçisi qonaqları üçüncü dəfə topu oyuna mərkəzdən başlamağa məcbur edib. Sezar Azpilikueta 55-ci dəqiqədə topu başla "Qarabağ" komandasının qapısından keçirib - 0:3.

Qarşılaşmanın 71-ci dəqiqəsində "Çelsi" futbolçularının künc zərbəsindən sonra başlatdıqları hücumda "Qarabağ" komandasının cərimə meydançasına ötürülən topa müdafiəçilərin səhvindən istifadə edərək dəqiq zərbə vuran Bakayoko hesab arasındakı fərqi dörd topa çatdırıb. Bu qoldan beş dəqiqə sonra "Qarabağ" komandasının müdafiəçilərinin növbəti səhvindən yararlanan ev sahiblərinin təşkil etdikləri hücumu Batşuayi dəqiq zərbə ilə tamamlayaraq beşinci topu qonaqların qapısından keçirib. Oyunun sonuna yaxın üstünlüyü tamamilə ələ alan "Çelsi" futbolçularının hücumu nəticəsində hesab arasındakı fərq altı topa çatıb. Belə ki, matçın 82-ci dəqiqəsində Zappakostanın ötürməsindən sonra top Maksim Medvedevə toxunaraq qapıdan keçib - 0:6. Beləliklə, "Qarabağ" komandası UEFA Çempionlar Liqasının qrup mərhələsinin ilk oyununda səfərdə "Çelsi"yə 0:6 hesabı ilə məğlub olub. Ağdam təmsilçisi UEFA Çempionlar Liqasının qrup mərhələsində növbəti oyununu sentyabrın 27-də Bakıda "Roma" komandasına qarşı keçirəcək.

## Sərbəst güləş yığmamızın uğurları



"Sentyabr ayının 4-10 tarixlərində Yunanıstanın Afina şəhərində yeniyetmələrin dünya birinciliyi keçirildi və Sərbəst güləş üzrə yeniyetmələrdən ibarət yığma komandamız 1 qızıl, 3 gümüş və 1 bürünc medalla Vətənə döndü". Bu barədə SİA-ya Sərbəst güləş üzrə yeniyetmələrdən ibarət yığma komandanın böyük məşqçisi Əsgərxan Novruzov məlumat verib.

Yarışlarda tam heyətlə iştirak etdiklərini deyən böyük məşqçi bildirib ki, yarışın ilk günü 5 çəki dərəcəsində 5 idmançıdan 4-ü finala yüksələ bilib: "Bildiyiniz kimi Dünya Güləş Birliyində qaydalar dəyişdiyindən idmançılarımız yeni qaydalar əsasında güləşirdi. Əvvəlki qaydalarda yarış bir gün olurdu. Lakin yeni qaydalara əsasən yarışlar bir gün ərzində finala qədər keçirilir, səhəri gün isə final yarışı baş tutur. İlk yarış günü finala çıxan 4 idmançımızdan 1-i qızıl, 3-ü isə gümüş medal qazandılar. Yarışın ikinci günü güləşçilərimizdən 3-ü üçüncü yer uğrunda finala çıxan idmançımızla mübarizə aparsalar da, nəticədə 1 idmançımız medala layiq görüldü. Komandamız hesabında olan medalların sayına görə, dünya dövlətləri arasında Rusiya və ABŞ-dan az fərqlə geri qalaraq 3-cü oldu".

Ə.Novruzov qeyd edib ki, Azərbaycan idmançılarının dünya birinciliyində əldə etdiyi nailiyyət ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir: "Azərbaycan kiçik dövlət olmasına baxmayaraq yarışın ilk günündə finala çıxan idmançılarının sayının 4 olması dünya güləşinə böyük təsir etmiş oldu. Onlar imkan dairəsində Azərbaycan idmançılarının medal qazanmasına mane olmağa çalışırdılar. İlk gündə Rusiyanın 2, İranın, ABŞ-ın, Yaponiyanın 1 finalçıları var idi. Finalda Azərbaycan idmançılarına qarşı haqsızlıqlar olsa da, komandamızın hesabına qızıl medal yazdıra bildik. Bəzi güləşçilərimizin təcrübəsizliyi son anda qələbənin əldən verilməsinə səbəb oldu. Gələcək yarışlarda bu səhvləri düzəltməyə çalışacağıq".

Böyük məşqçi əlavə edib ki, 2018-ci ildə Argentinada yeniyetmələrin III Yay Olimpiya Oyunları keçiriləcək: "Hazırda komandamız həmin yarışlara hazırlaşır. İlk növbədə Avropa birinciliyinə hazırlaşıb oradan lisenziyalar qazanmaq, daha sonra dünya birinciliyi və Yay Olimpiya Oyunlarından qızıl medal qazanmaq niyyətindəyik".

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**